

# İyunda 7 gün ardıcıl iş olmayacaq

*Nazirlər Kabineti iş və istirahət günlərinin yerlərinin dəyişdirilməsi haqqında qərar verib. "Unikal"ın xəbərinə görə, qərara əsasən, iş və istirahət günlərinin ardıcıllığını təmin etmək məqsədilə 2023-cü ilin 27 və 30 iyun iş günləri ilə müvafiq olaraq 24 və 25 iyun istirahət günlərinin yerləri dəyişdirilib.*

Səh.2

UNİKAL

№20 (2154) 26 may 2023-cü il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev

www.unikal.az

unikal-1@mail.ru



# Zaur Hüseynovun keçirdiyi tenderlər tənqid hədəfində

## "Bakı Metropoliteni" ilə satınalma müsabiqələrinin qaliblərini nə birləşdirir?

*"Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyəti (QSC) müxtəlif növ tikinti materiallarının satın alınması ilə bağlı tenderə yekun vurub. Tenderin qalibi "Steel Materials" MMC seçilib. Tərəflər arasında bağlanacaq satınalma müqaviləsinin maliyyə dəyəri 392 986,14 AZN təşkil edir. İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin reyestr məlumatlarına görə, "Steel Materials" MMC 12 yanvar 2022-ci ildə qeydiyyata alınıb. Nizamnamə kapitalı 20 AZN olan şirkətin hüquqi ünvanı Bakı şəhəri Nərimanov rayonu, Nazim Hacıyev küçəsi, ev 20, mənzil 14-də yerləşir.*

Səh.8



Səh.2

# Moskvada üçtərəfli Zirvə görüşü: Yekun sülh üçün daha bir addım

## "Avropa, ABŞ və Rusiya Azərbaycanın mövqeyindən çıxış etmir"



*Ağ Partiyanın sədri Tural Abbaslı "Unikal"a müsahibə verib. O, Türkiyədə keçiriləcək prezident seçkilərinin ikinci turunda kimin qalib gələcəyindən, seçkilərdən sonra Türkiyə-Azərbaycan münasibətlərində hansı yeniliklərin ola biləcəyindən və başqa məsələlərdən danışıb.*

Səh.4

## Sahil Babayev də "yolun sonuna" çatdı



*Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev tutduğu postla vidalaşa bilər. Buna səbəb son vaxtlar nazirliyin tabeliyindəki ayrı-ayrı qurumlarda aparılan yoxlamalar nəticəsində çoxsaylı qanun pozuntularının aşkarlanmasıdır. Məlumatı verən mənbə bildirib ki, Babayevin sələfi Səlim Müslümovun...*

Səh.7

## Multikultrallığı ilə dünyada nümunə olan Azərbaycanda ermənilərin Xudavəng oyunu



*Bir neçə gün öncə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) təşkilatçılığı ilə Alban (Qafqaz) Apostol Müstəqil Kilsəsinin varisi olan Azərbaycan Alban-Udi dini icmasının və qeyri-islam dini icmaların nümayəndələri Ermənistanın işğalından azad olunan Kəlbəcər rayonundakı Xudavəng monastır kompleksini ziyarət ediblər.*

Səh.11

# Eşqin Aysunu döydüyünə görə həbs edilib



***Müğənni Rəqsanənin keçmiş kürəkəni Eşqin Cəlilov həbs edilib.***

E.Cəlilov Rəqsanənin qızı Aysun İsmayılovaya qarşı fiziki şiddət göstərdiyi üçün barəsində şikayət olunub. Nəsimi Rayon Polis İdarəsinin əməkdaşları tərəfindən onun barəsində İnzibati Xətalar Məcəlləsinin 510 (xırda xuliqanlıq) və 157-ci (döymə) maddələri ilə protokol tərtib olunaraq məhkəməyə göndərilib. Nəsimi Rayon Məhkəməsinin qərarı ilə, E.Cəlilov 30 sutka inzibati qaydada həbs edilib.

Xatırladaq ki, bir neçə gün əvvəl müğənni R. İsmayılova sosial şəbəkə hesabında canlı yayımda qızı Aysunun Eşqin tərəfindən döyülüb söyüldüyünü bildirmişdi.

"Unikal" qafqazinfoya istinadən bildirir ki, Eşqin Cəlilov dünən Aysun İsmayılovanın sahibi olduğu gözəllik salonuna gedərək keçmiş xanımını orada döyüb.

Qeyd edək ki, cütlük 2022-ci ilin iyununda ailə həyatı qurub, 2023-cü ilin mayında rəsmi şəkildə boşanıb.

# "20 ildir bu sahədəyəm, niyə fəxri adım yoxdur?" - Aktrisa



***"Ürəyimdə qalıb məni incidənə qədər deyim, sizi incitsin. Aktyorlarımız qədər birliyi olmayan, bir-birini dəstəkləməyən, ümumiyyətlə həmfikir olmayan ikinci bir ölkə sənətçiləri tanımıram.***

Nə zaman hansısa kanalda aktyorların (çəkiliş, qonorar və s.) problemlərinə toxunan mövzular barədə fikir bildirmişəm, heç bir zaman paylaşıma belə dəstək xarakterli yazı belə yazmayıblar, bəyənməyiblər. Elə bilirsiniz görmürlər? Çox gözəl görürlər. Bütün günü sosial şəbəkələrdə oturub başqa ölkənin bizə aid olmayan məişət söhbətlərini, cəmiyyətimizin lazımlı və lazımsız bütün məsələlərini status halına gətirib, lağ-lağı edə bilirlər. Amma... Hə, niyə səslərini çıxarmırlar?".

Axşam.az xəbər verir ki, bu sözləri aktrisa Zülfiyyə Qurbanova bildirib. Sənətçi illərdir bu sahədə olmasına baxmayaraq fəxri ad və mükafat almamasından gileylənib: "Qorxurlar ki, hansısa rejissor oxuyar, sonra onları çəkməz. Amma hansı biri ilə rastlaşıramsa, deyirlər ki, çıxışınla razıyam. Heç kəsin görmədiyi yerdə dəstək cümlələri qurmaq üçün ürəyiniz gedir. Ona görə özümə söz verməşəm, bundan sonra nə zaman müzakirə xarakterli verilişdə sənətdə olan çatışmazlıqları dilimə gətirib, müzakirəyə qoşulsam, ancaq özümə toxunan məsələləri işıqlandıracağam. 20 ildir bu sahədəyəm, niyə adım və ya mükafatım yoxdur? Halbuki işlərimlə dünyanı gəzmişəm, hələ layihələrimizin aldığı mükafatları demirəm. Yerli layihələrdə göstərdiyim aktyor işlərindən danışmıram... Havayı, heç bir əziyyət çəkmədən halva kimi boşqabına hazır nələrsə gələn adamlar bilməz nədən danışıram".

Aktrisa daha sonra yazılan şərhlərə "Hazır oturub axmaq-axmaq söhbətlər edirlər. Özlərini küçədən kimsə tutub aktyor, aktrisa edib. Elə bilirlər hər kəs onların günündədir. Xeyr... Mənim kimi əziyyət çəkib öz sahəsinin magistratura pilləsini oxuyanlar da var. Öz istedadının, öz zəhmətinin həsabına" fikrini bildirib.

# "Kişilərdə olan üstünlüklər qadınlarda yoxdur" - Xatun Əliyeva



***"Kişilər bizdən güclüdür. Hər zaman kişilərin tərəfin saxlayıram. Adi qəza keçirdəndə kişi həyəcanlanmır, qadın özünü itirir. Allah kişiyə elə üstün cəhədlər verib ki, onlar qadınlarda yoxdur. Qadın kişiyə görə yaradılıb".***

"Unikal" axşam.az-a istinadən xəbər verir ki, bu sözləri müğənni Xatun Əliyeva "Xəbərətər" proqramında deyib. Sənətçi efirdə gedən müzakirə zamanı kişiləri müdafiə edib.

Sənətdən danışan Xatun hazırki mahnıların əksəriyyətini bəyənmədiyini söyləyib: "İndiki musiqilər pis vəziyyətdədir. Bəzi mahnılar var ki, onları efirdə gündəmə gətirmək olmaz".

Yeni klip çəkdirən ifaçı orada dünya ulduzu Beyonsun geyim tərzini təkrarladığını etiraf edib: "Məşhur brendin sonuncu kolleksiyasıdır. Həmin geyimi moda nümayişindən sonra Beyonsa hədiyyə ediblər. Paltarım beyonsun təkrarı idi".

# İlhamə Quliyevanın mahnısının sözlərini dəyişən Səidəyə irad



***Müğənni Səidə Dadaşovanın mərhum Xalq artisti İlhamə Quliyevanın repertuartında yer alan "Neylərsən" mahnısını ifa etməsi müzakirəyə səbəb olub.***

"Unikal" bizim mediaya istinadən xəbər verir ki, sənətçi qonaq olduğu "Həmin Zaur" axşam şousunda sözügedən mahnını səsləndirərkən bəstənin sözlərini dəyişdirdiyi üzə çıxıb.

Belə ki, nəğmənin əsl variantından "Yarama məlhəm istəsəm, səndən imdad diləsəm" olduğu halda, Səidə "Yarama məlhəm diləsəm, səndən imdad istəsəm" kimi oxuyub.

Dadaşova ifasını yekunlaşdırandan sonra verilişin aparıcısı Zaur Kamal müğənninin hit mahnının sözlərini dəyişdirdiyinə görə irad tutub.

"Bu mahnının sözləri axı belə yazılmayıb. Sən niyə sözlərini dəyişdirmisən. Olmaz axı belə? Qulağımı sözlər deşdi. Çünki mən radio aparıcıyam. Get o mahnının o hissəsini düzəlt", - deyə Zaur bildirib.

Onun bu sözlərinə isə Səidə "Allahdan hər bir şey istəmək olar. İmdad da diləyib, istəyirsən. Orada səhv yoxdur. Mən studiyaya girib, gözlərimi yumub, mahnını ifa etdim. O qədər mahnının sözlərini düzgün oxumayanlar var ki..." cavabını verib.

Qeyd edək ki, "Neylərsən" mahnısının sözləri Nuridə Ateşi, musiqisi isə Faiq Sücəddinova məxsusdur.

# "Onu polisə şikayət etmişəm" - Kərim Abasov

***"Təəssüf ki, beləsi çoxdur. Amma birini lap yaxından tanıyıram, hətta polisə də vermişəm. Bildiyiniz xəstədir. Hər şey edir ki, mənə bir zərər vursun".***

Bu sözləri müğənni Kərim Abasov sosial şəbəkədə yazıb. Tənqid və qeybətlə bağlı video yayımlayan sənətçi adını açıqlamadığı şəxsi polisə şikayət etdiyini deyib: "Xəbəri yoxdur ki, ömrünə, dəmir barmaqlıqlar arxasından baxmağına çox az qalıb. Sən özün yaxşı bilirsən ki, mənə ilişən ya ölür, ya da içəriyə gedir. Bax və izlə".





# Sahibə Qafarova Bob Bləkməni təltif etdi

***Böyük Britaniya Parlamentinin İcmalar Palatasının üzvü, Böyük Britaniya-Azərbaycan parlamentlərarası əlaqələr üzrə dostluq qrupunun rəhbəri Bob Bləkmənə Azərbaycan Respublikası Milli Məclisinin Fəxri medalı təqdim olunub.***

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən "Unikal"a verilən xəbərə görə, Bob Bləkmən Milli Məclisin sədri Sahibə Qafarovanın 19 may 2023-cü il tarixli sərəncamı ilə Azərbaycan Respublikası ilə Böyük Britaniya arasında parlamentlərarası əlaqələrin inkişafına və dövlətlərarası münasibətlərin genişləndirilməsi işinə verdiyi töhfələrə görə təltif edilib.

Fəxri medalı Milli Məclisin Azərbaycan-Böyük Britaniya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Soltan Məmmədov ölkəmizin Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığındakı Fövqəladə və səlahiyyətli səfiri Elin Süleymanovla birlikdə Bob Bləkmənlə İcmalar Palatasının binasında keçirilən görüş zamanı təqdim edib.

Soltan Məmmədov Bob Bləkmənə Milli Məclis rəhbərliyinin salamlarını çatdırıb, Azərbaycanın haqlı mövqeyini daim müdafiə etdiyinə görə ona təşəkkürünü bildirib, parlamentlərarası əlaqələrin inkişafının iki ölkənin maraqlarından irəli gəldiyini qeyd edib.

Bob Bləkmən təltifə görə təşəkkür edib, Azərbaycana bu ilin aprel ayında baş tutmuş səfəri zamanı göstərilən qonaqpərvərliyə görə minnətdarlığını bildirib. O, Milli Məclis rəhbərliyi ilə görüşünü yüksək diqqətin, iki ölkə arasında münasibətlərə verilən xüsusi önəmin nümunəsi kimi qiymətləndirdiyini vurğulayıb.

Söhbət zamanı səfir Elin Süleymanov Azərbaycanla Böyük Britaniya arasında əlaqələrin bütün istiqamətlərdə uğurla inkişaf etdiyini qeyd edib. O, parlament üzvlərinin sıx əməkdaşlığının ikitərəfli münasibətlərin inkişafı baxımından xüsusi əhəmiyyət kəsb etdiyini bildirib.

Görüş zamanı hər iki ölkə parlamentinin dostluq qrupları arasında əməkdaşlığa dair məsələlər müzakirə olunub.

Xatırladaq ki, Bob Bləkmən Britaniya parlamentində mütəmadi olaraq Azərbaycanı dəstəkləyən çıxışlar edib, ölkəmizdə çoxsaylı səfərlərdə olub. 2021-ci ildə Bob Bləkmənin rəhbərlik etdiyi nümayəndə heyəti işğaldan azad olunmuş Şuşa şəhərində və Füzuli rayonunda, 2023-cü ildə Ağdam rayonunda olub. O, dəfələrlə Ermənistanın işğalçılıq siyasətini qınayan bəyanatlarla çıxış edib.

# Sülhməramlılar Alban-udi icmasını Xudavəngə buraxmadı

***Qarabağda müvəqqəti yerləşdirilmiş Rusiya sülhməramlıları Azərbaycanın Alban-Udi xristian icmasının nümayəndələrinin Kəlbəcər rayonundakı Xudavəng monastır kompleksini ziyarət etməsinə mane olub.***

"Unikal" xəbər verir ki, bununla bağlı sosial şəbəkələrdə görüntülər yayılıb.

"Sülhməramlılar deyir ki, bu ərazi bizimdir, sizin buraya keçməyə ixtiyarınız yoxdur. Nə vaxt icazə versələr, keçəcəyik", - Alban-Udi xristian icmasının sədr müavini Rafiq Danakari deyib.

Qeyd edək ki, icma nümayəndələrinin Xudavəngə buraxılmaması ilə bağlı hələlik rəsmi açıqlama verilməyib.

# Zaur Hüseynovun keçirdiyi tenderlər tənqid hədəfində

## "Bakı Metropoliteni" ilə satınalma müsabiqələrinin qaliblərini nə birləşdirir?



***"Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyəti (QSC) müxtəlif növ tikinti materiallarının satın alınması ilə bağlı tenderə yekun vurub. Tenderin qalibi "Steel Materials" MMC seçilib. Tərəflər arasında bağlanacaq satınalma müqaviləsinin maliyyə dəyəri 392 986,14 AZN təşkil edir.***

İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin reyestr məlumatlarına görə, "Steel Materials" MMC 12 yanvar 2022-ci ildə qeydiyyata alınıb. Nizamnamə kapitalı 20 AZN olan şirkətin hüquqi ünvanı Bakı şəhəri Nərimanov rayonu, Nazim Hacıyev küçəsi, ev 20, mənzil 14-də yerləşir. MMC-nin qanuni təmsilçisi Hüseynov Məcid Nəsimi oğludur. Lakin açıq mənbələrdə şirkət və qanuni təmsilçisi haqqında heç bir məlumat yoxdur. Şirkətin yeni yaranmasına və populyar olmamasına baxmayaraq, tenderlərdə fəal iştirak edir.

Qaynarinfo-nun yazdığına görə, Dövlət satınalmalarının elektron portalında yerləşdirilən məlumatlardan aydın olur ki, "Steel Materials" MMC ilə cari ildə toplam maliyyə dəyəri 606 218,19 AZN olan 6 satınalma müqaviləsi imzalanıb. Bura "Bakı Metropoliteni" QSC ilə imzalanan müqavilə də daxildir. Ötən il isə şirkət 7 satınalma müqaviləsi imzalayıb. Müqavilələrin toplam maliyyə dəyəri 270 224 AZN təşkil edir.

"Dövlət satınalmaları haqqında" Qanunun 6.2.1-ci maddəsinə görə satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığın, təcrübənin, texniki və maliyyə imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin və etibarlılığın olması lazımdır. Bir il öncə yaradılan və barəsində heç bir məlumat olmayan şirkətin bu kriteriyalara cavab verəcəyi inandırıcı görünmür.

Ancaq o da ilginc məqamdır ki, eyni sözləri "Bakı Metropoliteni" QSC-nin keçirdiyi tenderlərdə qalib olan əksər şirkətlər barədə də söyləmək mümkündür. "Unikal"ın araşdırmasına görə, Azərbaycanda böyük dövlət satınalmaları həyata keçirən qurumlardan olan "Bakı Metropoliteni"nin 2021-2023-cü illərdə keçirdiyi müsabiqələrdə ən çox qalib gələn şirkət "BAKI-MEXANİKİ-TƏMİR" ATSC-dir - 8 tender üzrə ümumilikdə 2,3 milyon manatlıq sifariş.

Məbləğ baxımından ən böyük sifariş alan şirkət isə "AZTEK.İN" MMC olub - 3 tender üzrə ümumilikdə 6,33 milyon manat sifariş.

Metropolitendən birdəfəyə ən böyük tender udan şirkət isə "BEST TELEKOM" MMC-dir - 3 milyon 543 min manat!

Lakin qəribədir ki, yalnız bir dövlət qurumundan, həm də cəmi 2 ilə bu qədər böyük məbləğdə, milyonlarla manatlıq sifariş alan hər üç şirkət barədə açıq mənbələrdə məlumata rast gəlinmir, onların heç birinin rəsmi internet resursu yoxdur. Halbuki yaşadığımız dövrdə bir şirkətin etibarlılığı, peşəkarlığı baxımından yuxarıda göstərdiyimiz məqamlar xüsusi önəm daşıyır. Üstəlik, bu, həmin şirkətlərin qalib elan edildiyi tenderlərin obyektivliyi, şəffaflığı baxımından əhəmiyyətlidir.

Amma görünən odur ki, 2014-cü ildən bəri Zaur Hüseynovun rəhbərlik etdiyi "Bakı Metropoliteni"ndə bu cür düşünmürlər. Elə adıçəkilən şirkətlərin özlərində də!

Eyni zamanda, yazdıqlarımız fonunda "Bakı Metropoliteni"nin son illərdə keçirdiyi satınalma müsabiqələri barədə tənqidlərin də boşuna meydana çıxmadığı qənaətinə gəlmək mümkündür. Nəzərə alsaq ki, bir müddət öncə Hesablama Palatası da sözügedən dövlət qurumunda tenderlərin şəffaflığını, obyektivliyini şübhə altına alanları haqlı çıxara biləcək nöqsanlar açıqlamışdı. Palatanın 2016-2017-ci illəri əhatə edən audit zamanı aydınlaşmışdı ki, dövlət satınalmaları keçirilərkən müvafiq bildirişlər dərc edilməyib, müqavilə haqqında məlumatlar rəsmi internet saytında yerləşdirilməyib, kotirovka sorğusu prosedurları keçirilərkən müvafiq Təlimatın tələblərinə əməl olunmayaraq şərtlər toplusu təsdiq və potensial imkanı olan malgöndərənlərin siyahısı tərtib edilməyib. Bundan başqa, mallar (işlər və xidmətlər) satın alınarkən satınalma metodundan istifadə edilmədən müqavilələr bağlanılıb və icraçılardan satınalma müqaviləsinin yerinə yetirilməsinin təminatı alınmayıb, keçirilmiş kotirovka sorğuları üzrə yekun protokolların surətləri müvafiq icra hakimiyyəti orqanına təqdim olunmayıb, satınalma prosedurlarına dair sənədlər toplusu tam hazırlanmayıb, iddiaçılar tərəfindən ixtisas göstəricilərinə dair sənədlər tam təqdim edilməyib, müqavilənin yerinə yetirilməsi təminatı alınmayıb və s. və i.a.

Bir sözlə, mediada "Bakı Metropoliteni"nin keçirdiyi tenderlərlə bağlı müəmmalı, şübhəli məqamlar barədə xəbərlərin, şərhlərin ardı-arası kəsilmir, lakin qurum rəhbərliyi belə tənqidlər, iradlar qarşısında susqun qalmağı və öz bildiyi şəkildə davam etməyi üstün tutur. Nə vaxtadək? Bax bunu demək çətindir, yaşayıb görəcəyik...

***Sənan Mirzə***

# Ermənistan rəhbərliyi sülhə mane olmaq üçün hiyləgər gedişlər edir



***Ermənistanın Baş naziri Nikol Paşinyan 22 mayda keçirdiyi mətbuat konfransında Azərbaycanla sərhədlərin delimitasiyası və sülh prosesi barədə diqqətçəkən fikirlər səsləndirib. Ermənistanın Qarabağ da daxil olmaqla Azərbaycanın ərazi bütövlüyünü tanıdığını deyən Baş nazir sərhəd probleminin SSRİ Baş Qərargahının 1975-ci ildə təsdiq etdiyi xəritələrə uyğun olaraq həll ediləbiləcəyini söyləyib.***

"Düşünürəm ki, 1975-ci ilin xəritəsi gələcək demarkasiya işləri üçün əsas ola bilər və olmalıdır, çünki demarkasiya ilə bağlı 2022-ci il oktyabrın 6-da Alma-ata bəyannaməsi əsasında Praqada əldə edilmiş razılaşmalar bunu nəzərdə tutur", - deyə Paşinyan bildirib.

Milli Məclisin deputatı Nəsib Məhəməliyev deyib ki, Paşinyanın Qarabağı Azərbaycan ərazisi kimi tanınması, olduqca müsbət haldır. Onun sözlərinə görə, bu o deməkdir ki, çətinliklə də olsa, Ermənistan siyasi hakimiyyəti reallığı qəbul edir, erməni milli şüurunda inqilabi dəyişiklər baş verir. Deputat bildirib ki, ancaq böyük sülh müqaviləsinin imzalanması üçün mətbuat qarşısında bəyanatla çıxış etmək kifayət eləmir: "Burada tarixi məsuliyyəti dərk etmək, siyasi iradə nümayiş etdirmək lazımdır. Paşinyanda isə, bu potensial hiss olunmur. Güclü xarici və daxili təzyiqlər, uzun illər ərzində erməni-daşnak millətçilərinin apardığı xəstə təbliğat, prosesin irəliləməsinə maneçilik törədir. Paşinyanı radikal addımlar atmaqdan çəkindirir".

N.Məhəməliyevin qənaətincə, təsadüfi deyil ki, həmin bəyanatdan dərhal sonra revanşist qüvvələrin, Qarabağ separatçılarının ciddi etirazları başlandı: "İranın bütün kütləvi informasiya vasitələri Paşinyanın fikirlərini özlərinə təhdid olaraq təqdim edirlər. Hətta erməni millətçilərindən daha irəli gedərək, Paşinyanı hədələməkdən çəkinmirlər. Şimal qonşumuz narazılığını bildirdi. Bu baxımdan, bölgədə təxribatlar istisna olunmur".

Mövzu ilə bağlı Modern.az-a danışan tarixçi alim Qasım Hacıyev deyir ki, 1903-cü ildən sonra hazırlanan bir çox xəritələr Azərbaycanın xeyrinədir. "Mən bu məsələləri çox yaxından izləyirəm. Ermənistanda ən hiyləgər siyasi fiqur məhz Baş nazir Paşinyandır. O, sözünün üstündə durmayan, qeyri-ciddi insandır. Xəritə məsələsinə gəlincə, Paşinyanı məcbur edirlər və o da danışır. Məncə, 1903-cü ildən müasir dövrə qədər olan xəritələr Azərbaycanın xeyrinədir. Ermənilər Moskvanın köməyi ilə torpaqlarımızı həm rəsmi, həm də qeyri-rəsmi şəkildə işğal edib. İndi də sülhə mane olmaq üçün hiyləgər gedişlər edirlər. Məqsədləri sülh prosesini ləngitməkdir", - tarixçi deyib.

Q.Hacıyev vurğulayıb ki, 1975-ci ilin xəritələrində anklavlar göstərilməyib. Onun sözlərinə görə, Paşinyan demarkasiya və delimitasiya işlərini məhz həmin xəritələr əsasında, anklavlar istisna olmaqla aparmaq istəyir.

"İşlər 1990-1993-cü illərin xəritələri əsasında aparılsa, Azərbaycanın haqlı tələbləri yerinə yetiriləcək. Paşinyan son çarə olaraq 1975-ci ilin xəritələrindən yapışıb. Çünki həmin xəritədə anklavlar, yəni Qazaxın 7, Naxçıvanın Kərki kəndləri əks olunmayıb. Ermənistan baş naziri özü də çox yaxşı bilir ki, həmin torpaqlar Azərbaycana məxsusdur. Məhz buna görə də Paşinyan bu ərazilər hansı xəritədə əks olunmayıbsa, onu irəli sürür. 1975-ci ilin xəritəsi tanınmır. Ermənistan çox sayda mənasız xəritələr dərc edib".

"Azərbaycan dövləti Paşinyanın təklif etdiyi xəritə ilə demarkasiya və delimitasiya işlərini aparmağa razı olmaz. 1975-ci ilin xəritəsində anklavlar qeyd olunmayıb. Həmçinin, orada Ermənistanın xeyrinə olan bəzi nüanslar var. Məsələn, həmin xəritədə 2000-dən artıq toponim ermənilər tərəfindən dəyişdirilib. Ümumiyyətlə, 1975-ci ilin xəritəsi nə Azərbaycana, nə də digər dünya ölkələrinə məlumdur. Azərbaycan üçün həqiqi olan bütün xəritələr idealdır. Ermənilər indiyə qədər bir neçə xəritəni irəli sürüblər, ancaq sonradan onların da Azərbaycanın xeyrinə olduğunu anlayaraq yenidən mövqelərini dəyişiblər", - deyə tarix elmləri doktoru əlavə edib.

# 41 siyasi partiya hesabat verdi

***Mərkəzi Seçki Komissiyasına (MSK) 2022-ci il üzrə maliyyə hesabatını verən partiyaların sayı 41-ə çatıb.***

Daha bir siyasi partiya maliyyə hesabatını təqdim edib. Sabiq səhiyyə naziri Əli İnsanovun rəhbərlik etdiyi Haqq Ədalət Partiyasının hesabatı MSK-ya təqdim olunub. Partiyanın hesabatında heç bir gəlir və xərclərin olmadığı qeyd edilib.

2022-ci il üzrə maliyyə hesabatını təqdim edən partiyalar bunlardır:

1. Yeni Azərbaycan Partiyası
2. Müstəqil Xalq Partiyası
3. Azərbaycan Təkamül Partiyası
4. "Milli Vəhdət" Partiyası
5. Vətəndaş Həmrəyliyi Partiyası
6. Demokratik İslahatlar Partiyası
7. Azərbaycan Demokratik Maarifçilik Partiyası
8. Böyük Quruluş Partiyası
9. Cümhuriyyət Xalq Partiyası
10. Klassik Xalq Cəbhəsi Partiyası
11. "Ana Vətən" Partiyası
12. Azərbaycan Liberal Demokrat Partiyası
13. Azərbaycan Xalq Partiyası
14. "Qorqud" Partiyası
15. "Ədalət" Partiyası
16. Müsavat Partiyası
17. Milli Cəbhə Partiyası
18. Vətəndaş və İnkişaf Partiyası
19. "Yeni Yol" Partiyası
20. Milli Dirçəliş Hərəkatı Partiyası
21. Yeni Zaman Partiyası
22. Müasir Musavat Partiyası
23. Milli Həmrəylik Partiyası
24. Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyası
25. Azərbaycan Milli İstiqlal Partiyası
26. "Birlik" Partiyası
27. Azərbaycan Demokrat Partiyası
28. Azərbaycan Ümid Partiyası
29. Ağ Partiyası
30. Azad Vətən Partiyası
31. Vəhdət Partiyası
32. Böyük Azərbaycan Partiyası
33. Azərbaycan Sosial Demokrat Partiyası
34. Azərbaycan Sosial Rifah Partiyası
35. Respublikaçı Alternativ (REAL) Partiyası
36. Azərbaycan Xalq Cəbhəsi Partiyası
37. Vətəndaş Birliyi Partiyası
38. Gələcək Azərbaycan Partiyası (GAP)
39. Azərbaycan Naminə Alyans Partiyası (ANAP)
40. Azad Demokratlar Partiyası
41. Haqq Ədalət Partiyası

Ümumilikdə Azərbaycanda ötən il dövlət qeydiyyatına alınmış 59 siyasi partiya olub ki, onlardan 41-i bu günədək MSK-ya maliyyə hesabatı verib.

Xatırladaq ki, Azərbaycandakı siyasi partiyalardan 22-si bu il fəaliyyətini dayandırmaq qərarına gəlib. Onu da bildirək ki, siyasi partiyalar qanunvericiliyə uyğun olaraq, yanvarın 1-dən aprelin 1-dək MSK-ya hesabat verməlidirlər.



# Məktəblilərdən niyə tibbi arayış tələb olunur?

***"Tədris ilinin bitməsinə 10-15 gün qalmış Səhiyyə Nazirliyi məktəblərə tələb qoyub ki, şagirdlər sağlamlıq haqqında arayış gətirsin. Elm və Təhsil Nazirliyi də məktəblilərdən təcili arayış gətirmələrini tələb edir".***

Bu barədə ictimai fəal Haldun Novruzzadə məlumat yayıb. O iddia edib ki, bir çox rayon poliklinikaları süni növbə yaradaraq insanları rüşvət verib sağlamlıq arayışı almağa məcbur edir: "Buna misal olaraq Yeni Günəşli 24 saylı Birləşmiş Şəhər xəstəxanası göstərilib. Bildirilib ki, 60-dan çox uşaq növbədə gözləyir. Hətta bəzi siniflər 30 manatdan rüşvət verib sağlamlıq kağızı alıb, almayanlar isə erkən saatlardan növbədədir".

Başqa bir sosial şəbəkə istifadəçisi də vəziyyətdən gileylənərək bildirib ki, məktəb 2-ci sinif şagirdlərinə sağlamlıq haqqında xüsusi forma veriblib. Onlara deyilib ki, poliklinikada müayinədən keçib vərəqəni doldurub gətirsinlər: "Qan, nəcis analizi, göz müayinəsi tələb edilir. Valideynlər pul verirsə, elə həmin gün də imzalayıb, möhür vurub sənədi verirlər. Pul verməyənlərin sənədinə poliklinikanın baş həkimi imza çəkib möhür vurmağı gecikdirir. Guya növbə çoxdur".

Sosial şəbəkələrdə geniş müzakirələrə səbəb olan problemlə bağlı Səhiyyə Nazirliyinə sorğu ünvanladıq. Qurumdan müraciətimizə cavab olaraq bildirildi ki, bununla bağlı nazirlikdən belə bir göstəriş verilməyib.

Məsələ ilə bağlı TƏBİB-ə də sorğu ünvanladıq. Qurumdan verilən məlumata görə, "Uşaqların icbari dispanserizasiyası" haqqında Azərbaycan Respublikasının Qanununun tələblərinə uyğun olaraq Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) tabeliyində olan ambulator-poliklinika yardımı göstərən müalicə-profilaktika müəssisələrində müayinələr aparılır: "Müayinələr bu müəssisələr tərəfindən dispanserizasiyadan keçiriləcək uşaqlara göstərilməli olan tibbi yardımın həcmi və keyfiyyət standartlarına uyğun olaraq tərtib edilmiş müayinə cədvəlinə və sahə prinsipinə əsasən həyata keçirilir.

İcbari dispanserizasiyadan keçiriləcək uşaqların həkimin çağırışı ilə tibb müəssisəsinə gətirilməsinə və dispanserizasiya ilə əlaqədar tibb işçilərinin göstərişlərinin yerinə yetirilməsinə görə məsuliyyəti onların valideynləri və digər qanuni nümayəndələri daşıyırlar.

Uşaqlarını müayinəyə gətirən valideynlər tərəfindən qaydalara əməl edilməməsi uşaqların randevu sistemi ilə müayinədən keçirilməsində problem yaradır, onlar qısa vaxtda bütün müayinələrin aparılması tələbi irəli sürürlər.

Tibb müəssisəsinə növbə sisteminin tənzimlənməsi üçün əlavə tədbirlərin görülməsi ilə bağlı müvafiq tapşırıqlar verilib".

# Aİ-nin sanksiyalar üzrə xüsusi nümayəndəsi İrəvanda

***Avropa İttifaqının sanksiyaların tətbiqi üzrə xüsusi nümayəndəsi David O'Sallivan Ermənistana səfər edib.***

O, İqtisadiyyat Nazirliyinə baş çəkib və nazir Vahan Kerobyanla görüş keçirib. Nazirliyin açıqlamasında bildirilib ki, Vahan Kerobyan və David O'Sallivan müxtəlif mövzuları müzakirə ediblər. Açıqlamada Rusiya qarşı sanksiyalara riayət etmək məsələsi göstərilməyib.

Xüsusilə qeyd olunub ki, Kerobyan və O'Sallivan Ermənistan və Aİ arasında ticarət-iqtisadi əlaqələrin gücləndirilməsi, Aİ ölkələri ilə ticarətin genişləndirilməsi, iqtisadi sahədə dialoqun davam etdirilməsi məsələləri barədə fikir mübadiləsi aparıblar.

# İyunda 7 gün ardıcıl iş olmayacaq



***Nazirlər Kabineti iş və istirahət günlərinin yerlərinin dəyişdirilməsi haqqında qərar verib.***

"Unikal"ın xəbərinə görə, qərara əsasən, iş və istirahət günlərinin ardıcıllığını təmin etmək məqsədilə 2023-cü ilin 27 və 30 iyun iş günləri ilə müvafiq olaraq 24 və 25 iyun istirahət günlərinin yerləri dəyişdirilib.

Qeyd edək, 26 iyun Azərbaycan Respublikasının Silahlı Qüvvələri Günüdür. Nazirlər Kabinetinin qərarına əsasən, bu il iyunun 28, 29-u isə Qurban bayramı günləri müəyyən edilib.

# Mərkəzi Seçki Komissiyası toplaşır



***Aprelin 26-da Mərkəzi Seçki Komissiyasının (MSK) iclası keçiriləcək.***

Bu barədə Komissiyanın mətbuat xidmətindən bildirilib. Məlumata görə, ölkə üzrə seçici siyahılarının tərtib edilməsi və dəqiqləşdirilməsi prosesinə yekun vurulacaq.

Qeyd edək ki, Azərbaycanda vahid seçicilər siyahısının tərtib olunması prosesinə yanvar ayının əvvəlindən başlanılıb. Seçki Məcəlləsinə əsasən, seçicilərin daimi siyahısı hər il mayın 30-dək təsdiqlənməlidir.

# Kamran Əliyev onları təltif etdi



***Baş prokuror Kamran Əliyevin rəhbərliyi ilə Azərbaycan Prokurorluğunun veteranlarının yubileyləri ilə əlaqədar tədbir keçirilib.***

"Unikal" xəbər verir ki, yubilyar veteranlar - İsmayıl Kazımov 75 və Sultan Əliyev isə 85 yaşının tamam olması münasibətilə Baş prokurorun imzaladığı əmrlə "Azərbaycan Prokurorluğunun 100 illiyi" Azərbaycan Respublikasının yubiley medalı ilə təltif edilib.

Tədbirdə iştirak edən İsmayıl Kazımova Baş prokuror tərəfindən yubiley medal və hədiyyə təqdim olunub.

İsmayıl Kazımov prokurorluq orqanlarında qulluq keçmənin, prokurorluq işçisi kimi qanunçuluq və hüquq qaydalarının təmin olunmasında, dövlətçiliyimizin maraqlarının müdafiə edilməsində xidmət aparmanın qürurverici olduğunu bildirərək göstərilən diqqət və qayğıya görə öz dərin minnətdarlığını bildirib.

Bundan başqa, Prokurorluqda qulluqda olmanın son yaş həddinə çatmış Baş Prokurorluğun Daxili işlər orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin böyük prokuroru Fərrux Babayev qulluq keçməsinə xitam verilməsi ilə əlaqədar Baş prokurorluğun rəhbərliyi tərəfindən qəbul edilərək fəxri fərmanla təltif olunub.

Görüşlərdə tədbir iştirakçıları xatirələrini bölüşərək səmimi

# Moskvada üçtərəfli Zirvə görüşü: Yekun sülh üçün daha bir addım

***Mayın 25-də Moskvada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasının Prezidenti Vladimir Putin və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan ilə üçtərəfli Zirvə görüşü olub.***



"Unikal" xəbər verir ki, bu barədə Prezidentin Mətbuat Xidməti məlumat yayıb. Avrasiya Ali İqtisadi Şurasının iclası çərçivəsində üçtərəfli danışıqlarda Azərbaycan-Ermənistan münasibətlərinin normallaşması müzakirə olunub.

Rusiya Prezidenti Vladimir Putin Azərbaycan və Ermənistan tərəfinə növbəti görüşün keçirilməsinə operativ reaksiya verdiklərinə görə minnətdarlığını bildirib. O ümid edib ki, bu görüş bir sıra məsələlərin praktik həlli üçün yaxşı proloq olacaq.

"Məhz bizim format sayəsində çox şeylərə nail olunub. 2020-ci ildə təkcə hərbi əməliyyatlara son qoyulmayıb, iqtisadi və nəqliyyat kommunikasiyalarının açılması və sərhədlərin delimitasiyası ilə bağlı işə başlanılıb. Bu müddət ərzində çox hadisələr baş verib. Detallara varmayacam. Ümumilikdə, mənim fikrimcə, problemlərin çətinliklərinə baxmayaraq, vəziyyət nizamlanma istiqamətində inkişaf edir. Bu istiqamətlərdən biri nəqliyyat kommunikasiyaları ilə bağlı işdir. Biz indi göz-gözə bu barədə danışdıq. Hələ də nizamlanmamış məsələlər var. Lakin fikrimcə, bu problemlər sırf texniki xarakter daşıyır", - deyə Putin bildirib.

"Bu mövzunu ətraflı müzakirə etdik. Əlbəttə ki, bu terminlər arxasında dəqiq anlayış dayanmalıdır. Bizim hamımızın mövqeyinə görə, bu, həll oluna bilən maneədir. Böyük hesabla onlar mövcud deyil. Bunlar sırf texniki məsələlərdir. Biz indi razılaşdıq ki, bir həftə sonra baş nazirin müavinləri görüşəcəklər", - deyə Putin əlavə edib.

Rusiya mətbuatının məlumatına görə, görüş təxminən 20 dəqiqə davam edib.

Bundan əvvəl Rusiya dövlətinin başçısı danışıq iştirakçılarının hər biri ilə ikitərəfli görüşlər keçirib.

Görüşün rəsmi başlamazdan əvvəl Putin, Əliyev və Paşinyan üz-üzə müzakirə aparıblar.

# Azərbaycanla Ermənistan arasında sərhadi keçmə proseduru Moskvada müzakirə olunacaq

***Rusiya Federasiyası baş nazirinin müavini Aleksey Overçuk Ermənistanla Azərbaycan arasında hansı texniki həll olunmamış məsələlərin qaldığını açıqlayıb.***

APA-nın Moskva müxbiri xəbər verir ki, üçtərəfli işçi qrupun rusiyalı həmsədri bildirib ki, bunlar texniki, lakin çox vacib detallardır.

"Söhbət Azərbaycanla Ermənistan arasında sərhədi keçmə prosedurundan gedir. Sərhəd və gömrük nəzarəti necə aparılacaq. Bu, baş nazirin müavinlərinin bir həftə sonra Moskvada müzakirə edəcəyi suallardır", - deyə Overçuk bildirib.



# Prezidentdən Elmira Axundova ilə bağlı sərəncam



***Azərbaycan Respublikasının ictimai-siyasi və mədəni həyatında uzunmüddətli səmərəli fəaliyyətinə görə Elmira Hüseyn qızı Axundova 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilib.***

"Unikal" xəbər verir ki, bununla bağlı Prezident İlham Əliyev Sə-

# Daha 9 nəfər koronavirusa yoluxdu



***Azərbaycanda son sutka ərzində koronavirus (COVID-19) infeksiyasına yoluxanların və peyvənd olunanların sayı açıqlanıb.***

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Unikal"a verilən məlumata görə, son sutkada infeksiyaya 9 yeni yoluxma faktı qeydə alınıb.

COVID-19-a yoluxan 11 nəfər sağalıb, xəstəlikdən vəfat edən olmayıb.

İndiyədək ölkədə ümumilikdə 831 789 nəfərin xəstəliyə yoluxması faktı müəyyən edilib, onlardan 821 431 nəfər müalicə olunaraq sağalıb, hazırda 85 aktiv xəstə var. Bu günə qədər 10 273 nəfər vəfat edib.

Məlumata görə, son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 1148, bu günə qədər isə ümumilikdə 7 616 076 test icra olunub.

# ABŞ Dövlət Departamenti: Azərbaycanla Ermənistan arasında yekun razılaşma əldə edilməkdədir

***Ermənistanın baş naziri Nikol Paşinyanın Azərbaycanın ərazi bütövlüyünün tanınmasını və sülhə davamlı sadiqliyi ilə bağlı son şərhlərini yüksək qiymətləndiririk.***

Bu barədə ABŞ Dövlət Departamentinin sözçüsü Metyu Miller bidlriib.

"Yekun razılaşma əldə edilməkdədir və biz dostlarımıza buna nail olmaqda kömək etməkdə qərarlıyıq", - deyə o bildirib.

Baş redaktor:
Zaur Əhməd

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qazet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:2000

# Moskvada Azərbaycan və Rusiya prezidentlərinin görüşü olub



***Mayın 25-də Moskvada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasının Prezidenti Vladimir Putinlə görüşü olub.***

Görüşdə çıxış edən **Rusiya Prezidenti Vladimir Putin dedi:**

- Hörmətli İlham Heydər oğlu. Hörmətli həmkarlar. İlk növbədə, Sizi bir daha salamlamaq və Azərbaycan Prezidentinə Avrasiya İqtisadi Birliyi çərçivəsində bizim bugünkü görüşümüzə qoşulması qərarını qəbul etdiyi üçün təşəkkür etmək istəyirəm. Artıq deyildiyi kimi, formal olaraq qonaq qismində, lakin həqiqətən, İlham Heydər oğlu haqlıdır, bu, çox şərti addır, çünki Azərbaycan ilə Avrasiya İqtisadi Birliyinin iştirakçısı olan bütün ölkələr arasında münasibətlərin səviyyəsi və xarakteri ciddi, dərin məna daşıyır. İqtisadi-ticari əlaqələr ardıcıl şəkildə inkişaf edir və bütün xalqlarımız arasında münasibətlərin möhkəmlənməsi istiqamətində irəliləyir. Mən çox istərdim ki, gələcəkdə də belə davam etsin, çünki regional əməkdaşlıq potensialı çox yüksəkdir.

İkitərəfli əsasda götürüldükdə ümumilikdə Rusiya-Azərbaycan münasibətləri yüksək səviyyədədir, həmçinin ardıcıl olaraq, bərabərhüquqlu prinsiplərlə, bir-birinin maraqlarını nəzərə almaqla və 2022-ci ilin fevralında imzalanmış Müttəfiqlik Qarşılıqlı Fəaliyyəti haqqında Bəyannaməyə uyğun şəkildə inkişaf edir. Biz hamımız buna çox şadıq.

Bu il Heydər Əlirza oğlu Əliyevin 100 illiyi bayram edilir. Siz həm Sovet İttifaqının, həm də müstəqil Azərbaycanın bu siyasi xadiminə bizim münasibətimizi bilirsiniz. Bu görkəmli siyasi xadim ölkələrimizin tarixində birləşdirici simadır. O da yaxşı məlumdur ki, biz Rusiyada bu yubileyi layiqincə qeyd etdik. Dövlət Dumasında və Federasiya Şurasında sərgilər keçirildi, televiziyada sənədli filmlərin nümayişi oldu. Rusiya Federasiyasının regionlarında da çoxlu tədbirlər oldu. Bu tədbirlər təkcə paytaxtda keçirilmədi, həmçinin Heydər Əliyevin daim xatırlandığı Kazanda, Həştərxanda, Dağıstanda, BAM-da, o cümlədən Moskva-Tında qatarının təntənəli yola salınması və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini kimi BAM-ın tikintisinə kuratorluq edən Heydər Əliyevin adının verildiyi Anqoya stansiyasında da tədbirlər oldu. Bunlar mənim əvvəldə söyləmək istədiklərimdir və mətbuat çıxandan sonra biz başqa məsələlər barədə də danışarıq. Buyurun.

**Azərbaycan Prezidenti İlham Əliyev dedi:**

- Çox sağ olun, hörmətli Vladimir Vladimiroviç. İlk növbədə, Avrasiya İqtisadi Birliyinin sammitinə dəvətə görə bir daha təşəkkürümü bildirirəm. Bu gün qeyd olunduğu kimi, mən bu təşkilatın sammitində ilk dəfədir iştirak edirəm. Baxmayaraq ki, biz artıq həmkarlarla fikir mübadiləsi aparmışıq, həm Müstəqil Dövlətlər Birliyinin, həm də digər beynəlxalq təşkilatların platformalarında və əlbəttə, ikitərəfli formatda müntəzəm işləyirik.

Heydər Əliyevin xatirəsinə göstərilən yüksək hörmətə görə təşəkkür etmək istərdim. Biz bunu yüksək dəyərləndiririk, Azərbaycanda bütün bunları çox yaxşı bilirlər. Sizin qeyd etdiyiniz kimi, yubiley tədbirləri həm Moskvada, həm dövlət hakimiyyət təsisatlarında, həm də regionlarda keçirilib. Onu deməliyəm ki, Heydər Əliyev və Siz, Vladimir Vladimiroviç, Rusiya ilə Azərbaycan arasında münasibətlərin hazırkı səviyyəsinin əsasını qoymusunuz. Məhz Sizin 2001-ci ildə Azərbaycana səfərinizdən sonra münasibətlər keyfiyyətcə yeni səviyyəyə yüksəldi və biz bu gün artıq bu münasibətləri müttəfiqlik qismində təkcə de-fakto deyil, həm də de-yure səciyyələndiririk. Siz qeyd etdiyiniz kimi, ötən ilin əvvəlində biz Müttəfiqlik Qarşılıqlı Fəaliyyəti haqqında Bəyannamə imzaladıq və icra edirik. Bu, bizim münasibətlərimizin ruhunu və xarakterini, ölkələrimizin daha sıx qarşılıqlı əlaqələrə səylərini əks etdirən mühüm siyasi sənəddir.

Əlbəttə, biz bu gün regional məsələlərdən də danışacağıq. Fürsətdən istifadə edərək, Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşdırılması işində səylərinə görə Rusiya tərəfinə minnətdarlığımızı bildirmək istərdim. Biz bu səyləri çox yüksək dəyərləndiririk. Bu gün keçiriləcək üçtərəfli görüşdə Sizin iştirakınız da Azərbaycan və Ermənistanın nəhayət sülh razılaşmasına gəlməsinə Rusiya Federasiyasının necə böyük əhəmiyyət verdiyini göstərir. Fikrimcə, Qarabağı Azərbaycanın tərkib hissəsi kimi tanıması barədə Ermənistan rəhbərliyinin bu yaxınlardakı bəyanatlarından, eləcə də Azərbaycan Respublikasının sahəsini konkret rəqəmlərlə göstərməklə Azərbaycanın ərazi bütövlüyünün tanınmasından sonra sülh sazişinin digər maddələrinin razılaşdırılması məsələsi daha asan olacaq. Çünki bu, başlıca amil idi ki, biz razılığa gələ bilmirdik.

Vladimir Vladimiroviç, bir daha ümid edirəm ki, bu gün biz üçtərəfli formatda da iki ölkə arasında münasibətlərin normallaşdırılması istiqamətində daha bir addım atacağıq.

İkitərəfli gündəliyə gəlincə, o, kifayət qədər genişdir. Onu ətraflı nəzərdən keçirəcəyik. Dəvətə görə bir daha sağ olun.

***İnformasiya şöbəsi***



# İlham Əliyev Paşinyanın cavabını verdi

## Prezident: "Laçın yolundan istənilən ölkə vətəndaşı təhlükəsiz keçə bilər"

***Xəbər verdiyimiz kimi, Ali Avrasiya İqtisadi Şurasının iclasının sonunda Ermənistanın baş naziri Nikol Paşinyan çıxışında Zəngəzur dəhlizini "ərazi iddiaları" adlandırıb. Bundan başqa o, Laçın yolunun Azərbaycan tərəfindən bağlandığını idda edib.***

"Unikal" xəbər verir ki, həmin iclasda qonaq qismində qatılan Azərbaycan Prezidenti İlham Əliyev Paşinyanın bu iddialarını cavabsız qoymayıb:

"Əlbəttə, mən burada diskusiya açmaq istəmirəm. Amma bizim Ermənistana qarşı ərazi iddialarımızın olması səsləndi. Demək istəyirəm ki, belə bir iddiamız yoxdur. Doğrudan da, zəngin fantaziyaya sahib olmalısan ki, mənim sözlərimdə bu ifadələri tapasan. Mən dəhliz sözündən istifadə etdim. Dəhliz sözü heç kimin ərazisinə bais olmaq kimi niyyəti özündə ehtiva etmir. Düşünürəm ki, beynəlxalq terminalogiyada bu söz istifadə olunursa, o sözə həmin o Ermənistan Baş nazirinin qoyduğu mənanı hər halda daxil etməyiblər. Düşünürəm ki, Vladimir Putinin də dediyi kimi, bu gün sülh sazişinin imzalanması üçün şərait var. Onu da nəzərə alaq ki, Ermənistan Qarabağı Azərbaycanın bir hissəsi kimi artıq tanıyıb.

Ermənistanın Baş nazirinin sözlərində yenə də ittiham səsləndi. Amma fikir verdinizsə, mən öz çıxışımda heç bir ittiham sözündən istifadə etməmişəm. Amma mən bunu belə qoya bilmərəm. Azərbaycan heç bir dəhlizi bloklamayıb. Laçın-Xankəndi yolu açıqdır. Ermənistan-Azərbaycan sərhədində hansını ki, siz tanıyırsınız, beynəlxalq normalara uyğun olaraq sərhəd-keçid mənqətəsi qurulub. O da Rusiya sülhməramlılarının postuna yaxın yerdə yerləşir. Bu sərhəd-keçid məntəqəsi vasitəsilə Ermənistan milliyyətli olan Azərbaycan vətəndaşları rahatlıqla Ermənistan istiqamətində keçə bilirlər. Heç bir maneə yaradılmır. Eyni zamanda, Qırmızı Xaç vasitəsilə nəql olunan xəstələrin, Xankəndi şəhərindən gələn təcili tibbi yardım maşınlarının qarşısı alınmır. Hər bir normal insan bunu görə bilər. Düşünmürəm ki, bu tribunadan əsassız ittihamları səsləndirmək üçün istifadə etmək lazımdır. Əgər çıxışıma diqqətlə qulaq assaydınız, mən dedim ki, Azərbaycan Zəngəzur dəhlizinin təşəbbüskarı olmuşdur. Bu, bizim hüququmuzdur. Nəyi istəyirik, onun da təşəbbüskarı oluruq. Biz düşünürük ki, bu, ağılabatandır. Yeri gəlmişkən, Rusiya və Ermənistan-Azərbaycan arasında olan münasibətlərin tənzinlənməsi ilə məşğul olan tərəflər bununun tərəfdarıdırlar".

Prezidentin çıxışından sonra Paşinayan cavab tapmaqda çətinlik çəkib. O bildirib ki, ilk dəfədir Rusiyanın bu layihəni dəsdəklədiyini eşidir.

# Bakıda müdafiə nazirlərinin görüşü keçiriləcək



***Azərbaycan-Gürcüstan-Türkiyə üçtərəfli strateji əməkdaşlıq formatı müxtəlif kritik əhəmiyyətli məsələlərin müzakirəsi üçün vahid zəncir yaradır.***

"Unikal" xəbər verir ki, bunu Gürcüstan müdafiə nazirinin müavini Lela Çikovani Tbilisidə Azərbaycanın Müstəqillik Günü münasibətilə keçirilmiş rəsmi qəbulda deyib.

"Üçtərəfli strateji səviyyəli görüşlər bizə milli maraqlarımız əsasında birgə siyasət hazırlamağa imkan verir. Müdafiə sahəsində əməkdaşlıq, birgə təlimlər və ekspert iclasları bizim hərbçilərimizi daha da yaxınlaşdırır və qarşılıqlı əməliyyat qabiliyyətini yüksəldir. Biz şadıq ki, Azərbaycan bu il müdafiə nazirlərinin üçtərəfli görüşünə ev sahibliyi edəcək", - nazir müavini deyib.

# "Avropa, ABŞ və Rusiya Azərbaycanın mövqeyindən çıxış etmir"

## Tural Abbaslı: "Onların ev sahibliyi ilə keçirilən görüşdə, istənilən razılaşmada Azərbaycanın mənafeyi ikinci plandadır"

***Ağ Partiyanın sədri Tural Abbaslı "Unikal"a müsahibə verib. O, Türkiyədə keçiriləcək prezident seçkilərinin ikinci turunda kimin qalib gələcəyindən, seçkilərdən sonra Türkiyə-Azərbaycan münasibətlərində hansı yeniliklərin ola biləcəyindən və başqa məsələlərdən danışıb.***

***-Tural bəy, mayın 28-də Türkiyədə prezident seçkilərinin ikinci turu keçiriləcək. Seçkilərdə kimin qalib gələcəyini düşünürsüz?***

-Birinci turda da düşünürdüm ki, Rəcəb Tayyib Ərdoğan rahatlıqla qalib gələcək. Seçkilərdə iştirak edənlər bilirlər ki, 0,5 faiz ciddi fərq sayılmır. Demək olar ki, birinci turdan da Ərdoğan qalib gəlmiş sayıldı. İkinci turda da Ərdoğanın qalib gələcəyini düşünürəm. Birinci turda müxalifət elə bir rəy yaratmışdı ki, guya, qalib gələcəklər. Doğrudur, Türkiyədə tvitter üzərində müxalifət iqtidardan üstündür. Bu baxımdan, Türkiyə müxalif seçicilərində rəy yaranmışdı ki, birinci turda böyük fərqlə AK Partiyə (Ədalət və İnkişaf Partiyası) qalib gələcəklər. Amma Ərdoğanın 49,5 faiz səs toplamasından sonra CHP-ni dəstəkləyənlər böyük xəyal qırıqlığına uğradılar, şok yaşadılar. Onlar rahatlıqla qalib gələ bilməyəcəklərini gördülər. Böyük ehtimalla 2-ci turda Kılıçdaroğluna ilk turda yığdığı qədər səs verilməyəcək. Çünki seçicilərin bir çoxu seçkiyə getməyəcək. Hətta "Altılı masa"dakı partiyalar da əvvəlki həvəsi göstərmirlər. Artıq onların deputatları seçilib, stimulları qalmayıb. Birinci turda AK Partinin parlamentin çoxluğunu qazanması həm də türk seçicisinə mesaj oldu ki, əgər ikinci turda Kılıçdaroğlu seçilərsə, o zaman icraedici orqanla - yəni, prezident institutu ilə parlament arasında rəqabət başlayacaq. Parlamentdə üstünlük AK Partidə olacaq ki, bu da növbəti krizislərə, idarəçilik boşluğuna gətirib çıxara bilər. Mümkün deyil ki, prezident müxalifətdən, parlament isə AK Partidən olsun. Burada bir qarşıdurma yaranacaq və bu da ölkəni qeyri-sabitliyə doğru aparacaq. Seçici həm də bunu düşünür. Elə hesab edirəm ki, dünənə qədər Kılıçdaroğluna səs verənlər qeyd etdiyim faktları nəzərə alaraq Ərdoğana səs verəcəklər. "Ata İttifaqı" siyasi blokunun namizədi Sinan Oğan da öz mövqeyini açıqlayıb. Onun da 5 faizlik səsi var idi. Doğrudur, "Zəfər" Partiyası Kılıçdaroğlunu dəstəkləyib. Hər halda Ərdoğanın birinci turdakı 0,5 faiz çatmayan səsinə 2,5-i artırsaq, rahat şəkildə qalib gələcək. Ərdoğanın qalib gəlməsi Azərbaycanın da maraqlarına uyğundur. Bəziləri deyir ki, seçkilər bizim nəyimizə lazımdır? Bu çox bəsit, düşünülməmiş sözdür. Türkiyə ən yaxın müttəfiqimizdir və hər bir məsələdə, ən əsası Qarabağ müharibəsində yanımızda olub, ölkəmizi beynəlxalq aləmdə tək buraxmayıb. Sığındığın bir ölkənin seçkiləri ilə necə maraqlanmamaq olar...

***-Seçkilərdən sonra Türkiyə-Azərbaycan münasibətlərində daha hansı inkişaf istiqamətlərini görmək olar?***

-Ərdoğanın seçilməsində müsbət tərəf odur ki, hər şey sıfırdan başlamayacaq. Məsələn, Kılıçdaroğlu seçilsə, münasibətlər yenidən başlayacaq. Tutaq ki, o da istəsə Ərdoğan kimi Azərbaycanla münasibətləri davam etdirsin, ən azından yeni kadrlar gələcək. Onlar isə Azərbaycan-Türkiyə münasibətlərinin hazırkı durumundan məlumatsızdırlar. Onlar həmin vəziyyəti öyrənənə qədər vaxt itkisi olacaq. Təbii ki, Türkiyədə iqtidar dəyişərsə, yeni heyət durum dəyərləndirməsi edəcək. Bunların hər biri vaxt aparan məsələdir. CHP sədri Kamal Kılıçdaroğlu "BaBala TV" yutub kanalında yayımlanan müsahibəsində deyib ki, seçilsə, ilk olaraq Şimali Kipr Türk Respublikasına, daha sonra isə Azərbaycana səfər edəcək. Amma Ərdoğan və onun komandası isə birinci səfərini Azərbaycana edir. Bunun özü də bir göstəricidir. Ərdoğan seçilərsə, münasibətlər qaldığı yerdən davam edəcək. Məsələn, Şuşa Bəyannaməsi var. Bu, ciddi bir sənəddir. Hər iki ölkə öhdəliklər götürüb. Burada müdafiə məsələləri nəzərə alınıb. Bunun növbəti mərhələsi odur ki, Türkiyənin hərbi bazaları Azərbaycanın ərazilərində yerləşdirilsin. Əminəm ki, bununla bağlı danışıqlar gedir. Həmçinin, Türkiyə və Azərbaycan arasında kommunikasiya xətlərini qeyd edə bilərik. Bildiyiniz kimi, Zəngəzur dəhlizi məsələsi də var. Bu, türk-islam dünyası, Turan ideyasından başqa Azərbaycanın ata-baba torpaqlarının geri qaytarılması üçün bir addımdır. Biz oradan yol deyil, dəhliz istəyirik. Yəni, Ermənistanın yurisdiksiyasının təsir dairəsində olmayan yoldan söhbət gedir. Sabah biz iddiamızı davam etdirəcəyik. Hazırda olan layihələrin davam etməsi Türkiyə-Azərbaycan münasibətlərinin yüksəlişinə gətirib çıxaracaq.

***-Son aylar Azərbaycan və Ermənistan arasında keçirilən danışıqların sayı artıb. Necə düşünürsüz, yaxın vaxtlarda sülh müqaviləsi imzalana bilərmi?***



-Burada dava regionda kimin daha çox söz sahibi olacağı ilə bağlıdır. Hansı ölkə Cənubi Qafqazda öz təsirini nə qədər artıracaq. Biz bunu aydın görməliyik. Heç kim xəyala qapılıb düşünməli deyil ki, ABŞ-da hansısa Con, Avropada Hans və yaxud Rusiyada İvan oturub düşünür ki, gəlin bu Qarabağ məsələsini həll edək, Azərbaycan və Ermənistan rahat inkişaf etsin. Onlar öz maraqlarının təmini üçün çalışırlar. Bu gün Avropa və ABŞ-da sülh danışıqlarında hansısa mərhələyə nail olunursa, bu, həmin ölkələrin həm Azərbaycana, həm də Ermənistana təsir imkanlarını artırmaq üçün atılır. Rusiya da bunu eyni ilə edir. Təəssüflə qeyd etməliyik ki, Avropa, ABŞ və Rusiya Azərbaycanın mövqeyindən çıxış etmir. Onların ev sahibliyi ilə keçirilən görüşdə, istənilən razılaşmada Azərbaycanın mənafeyi ikinci plandadır. Bu da doğrudur ki, Azərbaycan qalib tərəfdir, ordusu, iqtisadiyyatı güclüdür. Avropa, ABŞ, Rusiya və Ermənistan bu məsələdə fakt qarşısındadır. Əvvəl deyirdilər ki, siz məğlub ölkəsiz və biz qalib olan Ermənistandan sizə hansısa güzəştlər etməsini xahiş edirik. Bu gün qalib olan Azərbaycana güzəştlər etdirməyə çalışırlar. Təəssüflə qeyd etməliyik ki, Erməni lobbisi Avropada, ABŞ-da və Rusiyada Azərbaycanı üstələyir. Həmin ölkələr daha çox Ermənistanın maraqlarını dəstəkləyir. Buradan nə üçün Azərbaycanın üzərinə çox gələ bilmirlər? Ona görə ki, Azərbaycan orada tək təmsil olunsa da, arxasında Türkiyə var. Paşinyan bir dəfə ifadəsində söylədi ki, Avropadakı dostlarımız bizə deyirlər ki, siz Türkiyənin müttəfiqi olan Azərbaycanla düşmənçilik edirsiz, bunu unutmayın. Azərbaycanın mövqeyinin beynəlxalq arenada güclü olmasına görə Türkiyəyə borcluyuq. Digər tərəfdən biz niyə sülhə can atmalıyıq? Qalib tərəf deyil, məğlub olan bunu etməlidir. Bu baxımdan, tez bir zamanda sülh razılaşmasının bu şərtlər daxilində olmasını istəmirəm. Paşinyan dünənə qədər Qarabağ Ermənistandır deyirdi. Amma indi Azərbaycanın 86,6 min kvadrat kilometrini tanımağa hazır olduqlarını bildirib. Amma bir şərtlə ki, Azərbaycan da Ermənistanın 29,8 min kvadrat kilometrini tanısın. Düşmən nədən qorxduğunu, çəkindiyini deyir. Biz niyə tanımalıyıq? Gələcək nəsilləri ata-baba torpaqlarını geri qaytarmaq şansından məhrum etməliyik? Laçın yolunda buraxılış məntəqəsinin qurulmasını böyük uğur kimi qiymətləndiririk. Ona görə ki, 10 noyabr razılaşması var idi. İstənilən razılaşma Azərbaycanın əleyhinə olub. Belə ki, ermənilər razılaşmaya əməl etmirlər, Azərbaycandan tələb edirlər. Rusiyanın XİN rəhbəri Sergey Lavrov bildirdi ki, 10 noyabr razılaşmasında buraxılış məntəqəsi sözü qeyd olunmayıb. Öz ölkəmdə buraxılış məntəqəsi qurulması üçün 10 noyabr razılaşmasına bənd salmalıydım? Həmin razılaşmaya əsasən Laçın bizimdir. Əminəm ki, sülh razılaşmasından da ermənilər daha çox yararlanacaqlar. Qalib gəlmişik, torpaqlarımızı almışıq, ata-baba torpaqlarımız da var, onlara iddialıyıq. Heç bir sülh razılaşmasına imza atmırıq. Azərbaycanın mövqeyini anlayıram, bəli, dünyadan basqı var. Ermənilər Azərbaycanı müharibə tərəfdarı, destruktiv qüvvə kimi təqdim etməyə çalışır. 30 il torpaqlarımız işğalda qaldı, biz onları dünyaya aqressor kimi təqdim edə bilmədik. Amma son sentyabr döyüşlərində Azərbaycan sərhədlərinin müəyyənləşməsi üçün addımlar atdı, Paşinyan indi də bütün dünyaya deyir ki, Azərbaycan Ermənistanın suveren ərazilərinə daxil olub. Başa düşürəm, Azərbaycan bundan çəkinir. Amma çəkinmək lazım deyil, zatən dünya bizi sevməyəcək. Ona görə də dünyanı buraxmaq, öz maraqlarımızı müdafiə etməliyik. Marağımız Zəngəzurun Azərbaycana qaytarılmasından keçir. Biz onlardan 10 noyabr razılaşmasının tələblərini icra etməyi tələb etməliyik. Onlar hələ də həmin ərazilərdən ordusunu çıxarmayıb, Zəngəzura və Azərbaycanın qərb hissəsindən Naxçıvana yollar açılmayıb. Bir razılaşmaya əməl etməyən ölkə ilə ikinci razılaşmanı necə imzalamaq olar? Bu baxımdan, sülh müqaviləsinin qəti əleyhinəyəm.

***- Vətən müharibəsindən sonra Ermənistan silahlı qüvvələri tərəfindən bir neçə dəfə təxribatlar törədilib. Bu yaxınlarda da düşmən təxribatı nəticəsində şəhidlərimiz oldu. Düşmənin bu cür addımları yenidən döyüşlərin baş verməsinə səbəb ola bilərmi?***

-Ermənilər Xocalı və Xocavənddə məktəblilərə terrorçu düşərgələrində təlimlər keçirlər. Bu uşaqları kimə qarşı hazırlayırsız? Təbii ki, bunlar bizə qarşıdır. Biz hər zaman sərhədimizdə terrorçu ölkənin olmasından ehtiyat etməliyik və Ermənistanın silahsızlaşdırılması siyasətinə başlamalıyıq. Son yüz ili götürsək, dəfələrlə Ermənistanın Azərbaycana qarşı hərbi aqressiyasının olduğunu görərik. Biz necə buna göz yuma bilərik ki, Ermənsitan yenidən silah-sursat əldə etsin. Bilirik ki, bu silahları ilk olaraq Azərbaycana qarşı istifadə edəcəklər. Bu gün nə Almaniya, nə də Yaponiya hücum silahları istehsal edə bilməz. Bu ölkələr hücum ordusu saxlaya bilmir. Ona görə ki, Almaniya və Yaponiyaya deyiblər ki, siz iki dəfə dünya müharibəsi etmisiz. Biz nə üçün Ermənistandan bunu tələb etməyək? Azərbaycan bu gün güclüdür. Amma sabah bilmək olmaz ki, Fransa, Rusiya və ABŞ Ermənistana pulsuz formada hansı silahları hədiyyə edəcək. Nə qədər güclüyüksə, üstün olduğumuz məqamları dəyərləndirməliyik. Hərbi üstünlüyü siyasi üstünlüyə çevirməliyik. Amma bunu edə bilməmişik. Bu gün Ermənistanın silahsızlaşdırılmasına başlamalıyıq. Bunu etməsək, hər an Azərbaycanın əsgərinə, mülki vətəndaşına, suverenliyinə qarşı təhdid və təhlükə var. Hələ də insanlarımız mina qurbanı olur. Ermənilər bu günə qədər mina xəritələrini təhvil verməyiblər. Bu qədər səmimi olmayan ölkə ilə necə razılıq əldə edə bilərik?

***Anar Kəlbiyev***

# Azərbaycanda iki nazirliyin müəmmalı gedişi

## Onlar illik hesabatlarını niyə təqdim etməyiblər? - Məmurlarımızın sağalmayan mərəzi...

***Yola salmaq üzrə olduğumuz həftə aydınlaşdı ki, Azərbaycanda 11 dövlət qurumu qanunvericilikdə müəyyən edilmiş hesabat formalarını müvafiq tarixə qədər Hesablama Palatasına təqdim etməyib. Bu barədə Hesablama Palatasının "2022-ci ilin dövlət büdcəsinin icrası haqqında" qanun layihəsinə və "2022-ci ilin dövlət büdcəsinin icrasına dair illik hesabata" verdiyi rəydə bildirilir.***

Həmin 11 dövlət qurumundan ikisi nazirlikdir. Söhbət Gənclər və İdman Nazirliyi ilə Mədəniyyət Nazirliyindən gedir. Digər dövlət qurumları isə aşağıdakılardır: "Mir" Dövlətlərarası Teleradio Şirkətinin Azərbaycan Milli Nümayəndəliyi, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Elektron Təhlükəsizlik Xidməti, "BakuBus" MMC, "Aqroservis" ASC, Beynəlxalq Muğam Mərkəzi, "Bakı Kristal Zalı" MMC, Minatəmizləmə Agentliyi, Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi, Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin Elektron Hökumətin İnkişafı Mərkəzi.

Qeyd edək ki, "Büdcə sistemi haqqında" qanunun 18.3-1-ci maddəsinə əsasən büdcə təşkilatları və dövlət büdcəsindən maliyyə yardımları alan təşkilatlar həmin vəsaitlərdən istifadə barədə müəyyən olunmuş qaydada rüblük və ilin əvvəlindən artan yekunla funksional, iqtisadi və inzibati təsnifat üzrə hesabatları müvafiq icra hakimiyyəti orqanına, habelə Hesablama Palatasına təqdim edirlər.

Lakin məlumatların təhlili göstərir ki, hüquqi aktda təqdim edilmə tarixi martın 1-dək olsa da, bir sıra qurumlar tərəfindən bu tələbə riayət edilməyib. Yəni illik hesabatlar Hesablama Palatasına göndərilməyib.

Adıçəkilən dövlət qurumlarının, xüsusilə də iki nazirliyin bu addımı suallar doğurur.

Maraqlı burasındadır ki, son illərdə həm Gənclər və İdman, həm də Mədəniyyət Nazirliyində çoxsaylı korrupsiya halları aşkarlanıb. Hesablama Palatasının bu qurumlarda apardığı auditlər nəticəsində aşkarladığı nöqsanların sayı-hesabı yoxdur. Üstəlik, Mədəniyyət Nazirliyində cəmi 2 il içində 2 dəfə Dövlət Təhlükəsizlik Xidməti (DTX) tərəfindən anti-korrupsiya əməliyyatı keçirilib, nəticədə yüksək vəzifəli şəxslər saxlanılıb, onlar sonradan məhkəmə qərarı ilə həbs ediliblər. Bu da azmış kimi, ilk əməliyyatın ardından Əbülfəs Qarayev, ikinci əməliyyatın ardından isə Anar Kərimov mədəniyyət naziri postlarını itiriblər.

Gənclər və İdman Nazirliyinin keçmiş rəhbərliyi isə bu qurumdakı mənimsəmə, yeyinti hallarının aşkarlanmasından sonra yaxalarını nisbətən "ucuz" qurtardılar. Belə ki, öncə nazirlikdə milyonlarla manat dövlət vəsaitinin təyinatsız, qeyri-effektiv xərcləndiyi ortaya çıxdı, bir müddət sonra isə nazir müavinləri İsmayıl İsmayılovla İntiqam Babayev vəzifələrindən kənarlaşdırıldılar. Tamamilə gözlənilən idi - nazirlikdə faktiki olaraq talan edilən büdcə pullarının müqabilində hər iki vəzifəli şəxsin özlərinə dəbdəbəli həyat və geniş biznes qurduqları, paytaxtın "milyonçular məhəlləsi" kimi tanınan Teymur Əliyev küçəsində, eləcə də digər mərkəzi yerlərində mənzillər aldıqları, Novxanı, Mərdəkan və Şüvəlanın dənizkənarı ərazilərində çoxmilyonluq mülklərə sahibləndikləri və s. ortaya çıxmışdı.

Lakin belə görünür, hər iki qurumda - Gənclər və İdman Nazirliyi ilə Mədəniyyət Nazirliyində keçmişdənqalma zərərli vərdişlər aradan qaldırılmayıb. Bu nazirliklərin illik hesabatlarını vaxtında təqdim etməməsi bu cür düşünməyə əsas yaradır.

Ümumiyyətlə, Azərbaycanda bir sıra məmurlar hələ də ya dərk, ya da qəbul etmək istəmirlər ki, indiki dövrdə hesabatlılıq hər bir dövlət qurumunun, hər bir vəzifəli şəxsin, hər bir post sahibinin başlıca borcudur. Yalnız hesabatlılıq və şəffaflıq şəraitində ölkədə korrupsiya meyllərini azaltmaq, "arxivə göndərmək" mümkündür. Kimsə vaxtlı-vaxtında hesabat vermirsə, xərclədiyi dövlət vəsaitlərini elə dövlətin öz müvafiq qurumlarından, əlaqədar orqanlarından, - məsələn, Hesablama Palatası kimi! - gizlətməyə çalışırsa, deməli, ortada xoşagəlməz işlər var.

Unudulmamalıdır ki, son illərdə Azərbaycanda çox sayda məmurun həm postunu, həm azadlığını itirməsində, hüquqi məsuliyyətə cəlb olunmasında məhz yuxarıda sadaladığımız xüsuslar həlledici olmuşdur - hesabatlılıqdan, şəffaflıqdan yaxaların kənara çəkmələri onlara baha başa gəlmişdi...

Bir çoxları bu sadə həqiqəti sonradan anlayır, onda da gec olur - gözlərini açıb görürlər ki, ya işsiz-gücsüz qalıblar, ya da dəmir barmaqlıqlar arxasındadırlar.

Hələ də hesabatlılığa, şəffaflığa dırnaqarası yanaşanlardan soruşmaq istərdik: doğrudanmı, siz bu iki sonluqdan birinin, - ya da elə ikisinin birdən! - başınıza gəlməsini bu qədər çox istəyirsiniz?!

***Sənan Mirzə***



# "Ölkəmizdə media azadlığı təmin olunur" - İnam Kərimov



***"Bu gün ölkəmizdə həm qanunvericilik, həm də məhkəmə praktikası ilə media azadlığı təmin olunur".***

"Unikal" xəbər verir ki, bunu Ali Məhkəmənin sədri İnam Kərimov Femida Dialoq Platforması üzrə media nümayəndələri ilə görüşdə deyib.

O xatırladıb ki, 2001-ci ildə ölkəmiz "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Avropa Konvensiyasına qoşulub və həmin vaxtdan Konvensiya ölkə qanunvericiliyinin ayrılmaz tərkib hissəsidir:

"Bununla da Avropa Məhkəməsinin presedent hüququ yerli məhkəmələr tərəfindən Konvensiyanın tərkib hissəsi kimi qəbul edilərək təcrübədə geniş tətbiq edilir. Bu da nəticə etibarı ilə, media azadlığının ölkəmizin məhkəmələri tərəfindən Avropa Məhkəməsi standartlarına uyğun təmini deməkdir.

Azadlıqla məsuliyyət vəhdət təşkil edir. Yəni, azadlıqla məsuliyyət bir-birindən ayrılmaz anlayışlardır. Odur ki, daha çox azadlıq həm də daha çox məsuliyyət deməkdir. Media orqanlarının obyektivlik, dürüstlük, şəffaflıq, şəxsi həyata hörmət kimi dəyərləri özündə ehtiva edən qanunla müəyyən edilmiş vəzifələri var. Məhkəmənin də rolu bütün tərəflərin hüquq və vəzifələrini balanslı şəkildə qiymətləndirməkdən ibarətdir. Məhkəmə hakimiyyəti olaraq bizim də media orqanlarından əsas gözləntimiz məsuliyyətli olmalarıdır. Ona görə ki, media həm də məsuliyyətin cəmiyyətin formalaşmasında mühüm rol oynayır".

# Kərim Vəliyev Pakistanın müdafiə naziri ilə görüşdü



***Pakistan İslam Respublikasında rəsmi səfərdə olan müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev Parlamentin Müdafiə Palatasını ziyarət edərək bu ölkənin Federal müdafiə naziri cənab Asif Muhammed Xavaca ilə görüşüb.***

Bu barədə "Unikal"a Müdafiə Nazirliyindən məlumat verilib.

Qonaqları salamlayan Pakistanın müdafiə naziri Azərbaycan ilə Pakistan arasında hərbi əlaqələrin yüksək səviyyədə olduğunu, ölkəsinin Azərbaycanın ərazi bütövlüyünü tanıdığını və ölkəmizlə hərbi əlaqələrin genişləndirilməsinə xüsusi önəm verdiyini diqqətə çatdırıb.

Dövlətlərimizin həm ikitərəfli əsasda, həm də beynəlxalq təşkilatlar çərçivəsində bütün məsələlərdə qarşılıqlı dəstək göstərdiyini qeyd edən nazir ölkələrimizin yerləşdiyi bölgələrdə yaranmış vəziyyət və yeni çağırışların hərbi əməkdaşlığımızın möhkəmləndirilməsini zəruri etdiyini diqqətə çatdırıb.

Cənab A.M.Xavaca hər iki ölkə ordularının döyüş qabiliyyətinin artırılması, bu sahədə təcrübə mübadiləsinin aparılması, habelə əldə olunan nailiyyətlərin daha da inkişaf etdirilməsinin vacibliyini vurğulayıb.

Qəbula görə təşəkkürünü bildirən general-polkovnik K.Vəliyev Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənovun salamlarını cənab A.M.Xavacaya çatdırıb.

Baş Qərargah rəisi Pakistanla müdafiə sahəsində əməkdaşlığın genişləndirilməsinin Azərbaycanın Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin daim diqqət mərkəzində olduğunu xüsusi qeyd edib.

General-polkovnik K.Vəliyev azad edilmiş ərazilərdə aparılan mühəndis və bərpa-quruculuq işləri, həmçinin Ermənistan silahlı qüvvələrinin şərti sərhəddə törətdiyi təxribatlar və bu təxribatlara qarşı görülən tədbirlər barədə Pakistanın müdafiə nazirinə ətraflı məlumat verib. Tərəflər birgə təlimlərin keçirilməsi, müdafiə sənayesi sahəsində əməkdaşlıq, o cümlədən qarşılıqlı maraq doğuran bir sıra məsələləri müzakirə edib, Azərbaycan ilə Pakistan arasında hərbi və hərbi-texniki əməkdaşlığın daha da genişləndirilməsinin əhəmiyyətini vurğulayıblar.

Görüşdə Azərbaycanın Pakistan İslam Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri cənab Xəzər Fərhadov da iştirak edib.



## Azərbaycan ilk dəfə olaraq Beynəlxalq Nəqliyyat Forumunun prezidenti seçildi

***Almaniyanın Leypsiq şəhərində İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatına üzv ölkələrin nəqliyyat nazirləri, yüksək səviyyəli nümayəndə heyətləri və bir sıra beynəlxalq təşkilatların nümayəndələrinin iştirakı ilə Beynəlxalq Nəqliyyat Forumunun (BNF) "Dayanıqlı iqtisadiyyatları təmin edən nəqliyyat" adlı Sammiti keçirilir.***

"Unikal" xəbər verir ki, sammit çərçivəsində keçirilən Nəqliyyat Nazirlərinin Şura iclasında Azərbaycan yekdil səslə 2025-2026-cı illər üçün tarixdə ilk dəfə BNF-in prezidenti seçilib.

Tədbirdə iştirak edən rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Rəhman Hümmətov çıxış edərək ölkəmizə yüksək etimad göstərildiyinə görə BNF-yə üzv dövlətlərin nümayəndələrinə dərin təşəkkürünü bildirib. Eləcə də Azərbaycanın BNF-yə prezidentliyi dövründə görüləcək işlər və prioritetlər barədə məlumat verib.

Rəhman Hümmətov, həmçinin Orta Dəhliz üzrə tranzit potensialının genişləndirilməsinə mühüm təsir göstərə və regionun nəqliyyat-kommunikasiya xəritəsində strateji dəyişikliklərə səbəb ola biləcək Zəngəzur dəhlizi haqqında danışıb. Ölkəmizin yüksək nüfuza malik olan beynəlxalq təşkilata prezident seçilməsi bir daha Azərbaycanın regionda və dünyada, xüsusən də nəqliyyat sahəsində etibarlı tərəfdaş olduğunun təzahürüdür.

Beləliklə, ölkəmiz təşkilatın idarəetməsində birbaşa iştirak etmək imkanı əldə edib. Bu isə beynəlxalq müstəvidə ölkə maraqlarının, eləcə də sahəvi fəaliyyətlərə dəstəyin təmin edilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir.

Qeyd edək ki, 2022-ci ildə təşkilata müraciət olunaraq ölkəmizin 2025-2026-cı illər üçün Beynəlxalq Nəqliyyat Forumunun prezidentliyinə namizədliyi qeydə alınıb.

Azərbaycan 2025-2026-cı illər üçün BNF-in prezidenti seçilməsi ilə 2023-2024-cü illər üçün vitse-prezident, 2024-2025-ci illər üçün isə təşkilatın birinci vitse-prezidenti vəzifələrini icra edəcək.

Eyni zamanda ölkəmiz tərəfindən BNF-in "Beynəlxalq Daşıma Keyfiyyəti Xartiyası"nın tələblərinin daxili qanunvericiliyə inteqrasiyası prosesini başa vurması təşkilata üzv dövlətlər tərəfindən yüksək qiymətləndirilib.

Sammit çərçivəsində nazir müavini Rəhman Hümmətov Beynəlxalq Nəqliyyat Forumunun Baş katibi Yunq Ta Kim ilə ikitərəfli görüş keçirib. Görüşdə Azərbaycanın Prezidentiyi dövründə görüləcək işlər, eləcə də əsas əməkdaşlıq istiqamətləri müzakirə olunub.

Həmçinin bir sıra şirkətlərin rəhbərləri ilə keçirilən görüşlərdə tərəfdaşlıq perspektivlərinə dair müzakirələr aparılıb.

Qeyd edək ki, Beynəlxalq Nəqliyyat Forumunun 66 üzvü var. Azərbaycan Respublikası 1998-ci ildən BNF-in həqiqi üzvüdür.

## DYP rəisi təqaüdə göndərildi




***Naxçıvan Muxtar Respublikasının Culfa Rayon Dövlət Yol Polisi İdarəsinin (DYPİ) rəisi vəzifəsindən azad edilib.***

Bu barədə Naxçıvan Muxtar Rüspublikasının Daxili İşlər Nazirliyindən məlumat verilib.

Bildirilib ki, Culfa rayon DYPİ-nin rəisi, polis mayoru Davud İmanov daxili işlər orqanlarında xidmət keçmənin son yaş həddi ilə əlaqədar təqaüdə göndərilib.

Onun yerinə hələlik təyinat yoxdur.

# Agentlik direktoru ilə bağlı ilginc iddialar

## Peşə Təhsili üzrə Dövlət Agentliyinə ilyarımdır niyə direktor təyin edilmir? - Pərviz Yusubov müəmması...



***Ötən ay Baş Prokurorluq məlumat yayaraq Peşə Təhsili üzrə Dövlət Agentliyinin tabeliyində olan təhsil müəssisələrində baş verən qanunsuzluqlarla bağlı cinayət işinin başlandığını açıqladı.***

Məlumatda bildirilirdi ki, Elm və Təhsil Nazirliyinin Peşə Təhsili üzrə Dövlət Agentliyinin tabeliyində olan peşə təhsili müəssisələrinin vəzifəli şəxsləri tərəfindən dövlət vəsaitlərinin idarə olunması ilə bağlı qanunvericiliyin pozulması barədə Hesablama Palatasından daxil olmuş material əsasında Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində araşdırma aparılıb.Araşdırma zamanı həmin Agentliyin tabeliyində olan ayrı-ayrı peşə məktəblərinin vəzifəli şəxsləri tərəfindən dövlət büdcəsi vəsaitlərinin əmək haqqı və digər ödənişlər adı ilə qanunsuz olaraq müxtəlif şəxslərin bank hesablarına köçürülməsinə və bununla da, dövlətin qanunla qorunan mənafelərinə mühüm zərər vurulmasına əsaslı şübhələr müəyyən edilib.

"Faktla bağlı Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində cinayət işi başlanaraq ibtidai istintaq aparılır" məlumatda deyilirdi.

Yola salmaq üzrə olduğumuz həftə isə Peşə təhsili üzrə Dövlət Agentliyinin direktor vəzifəsini icra edən, direktor müavini Ceyhun Kərəmov Hesablama Palatasının apardığı audit zamanı bir sıra peşə təhsili müəssisələrində büdcədənkənar vəsaitlər hesabına ödənilməli olan xərclərin büdcə vəsaitləri hesabına ödənildiyi, siniflərin düzgün komplektləşdirilmədiyi, bəzi hallarda dərs normalarına əməl edilmədiyi, cari ilin xərclərinin növbəti ilin büdcəsindən təmin edildiyi və s. kimi aşkarlanan nöqsanlarla bağlı məsələyə münasibət bildirib.

APA-ya müsahibəsində C.Kərəmov deyib ki, peşə təhsili müəssisələrinin bir çoxunda kənar dövlət yoxlaması aparılıb: "Bununla bağlı Hesablama Palatası da ictimaiyyəti məlumatlandırıb. Müəyyən olunmuş boşluqlar, pozuntular üzrə auditorların konkret qərarı var. Həmin qərarın icrası ilə bağlı işlər aparılır. Bərpa olunmalar var ki, onların bərpası üzərində iş gedir, eyni zamanda artıq bir neçə peşə təhsili müəssisəsində ciddi nöqsanlar aşkarlandığı üçün məlumat hüquq mühafizə orqanlarına təqdim olunub. Qanunun tələblərinə uyğun olaraq müəyyən araşdırmalar aparılacaq".

Xatırladaq ki, Peşə Təhsili üzrə Dövlət Agentliyinə uzun illər Pərviz Yusubov rəhbərlik edib. Lakin Emin Əmrullayev təhsil naziri postuna təyinat aldıqdan bir müddət sonra, 2021-ci ilin avqustunda onu vəzifədən uzaqlaşdırıb. Həmin posta Valeh Mirzalıyev gətirilib. Lakin cəmi 6 ay sonra Mirzalıyev nazirin müşaviri təyin edilib. Beləcə, direktor vəzifəsinin icrası direktor müavini olan Ceyhun Kərəmova tapşırılıb. Maraqlıdır ki, bunun üzərindən, az qala, ilyarım keçsə də Agentliyə direktor təyinatı gerçəkləşməyib. Niyə? Həmin suala konkret cavab vermək mümkün deyil. Lakin reallıq ondan ibarətdir ki, istər Baş Prokurorluğun məlumatı, istərsə də C.Kərəmovun açıqlaması Peşə Təhsili üzrə Dövlət Agentliyinin keçmiş fəaliyyətində ciddi nöqsanların olduğunu göstərir. Eyni zamanda Agentliyin tabeliyində olan təhsil müəssisələrində vaxtilə baş verən qanunsuzluqların da kifayət qədər geniş miqyas daşıdığını göstərir. Ola bilsin, Elm və təhsil naziri adıçəkilən Dövlət Agentliyinə yeni direktor təyinatı üçün "suların" tam "durulmasını", araşdırmaların başa çatmasını gözləyir.

Təhsil sektoruna yaxın mənbələr isə aşkarlanan qanunsuzluqların, yol verilən pozuntuların, əsasən, sabiq direktor Pərviz Yusubovun dövründə yaşandığını bildirirlər. Hətta barələrində araşdırmalar aparılan təhsil müəssisələri rəhbərlərinin ibtidai istintaqda keçmiş direktorun əleyhinə ifadələr verə biləcəyini də istisna etmirlər. Ümumiyyətlə isə qənaət bu yöndədir ki, P.Yusubov direktor olduğu dövrdə qurumun tabeliyindəki bir çox peşə məktəblərində maliyyə pozuntularının, yeyintinin, mənimsəmənin baş alıb getməsindən xəbərsiz ola bilməzdi.

Yeri gəlmişkən, P.Yusubovdan sonra Agentlik direktoru təyin edilən V.Mirzalıyevin işə korrupsiya iddialarını araşdırmaqdan başladığı, bunu birbaşa təhsil nazirinin göstərişi ilə etdiyi barədə məlumatlar yayılmışdı. Hətta Əmrullayevin ona qanunsuz əməllərə qol qoymuş vəzifəli şəxslərin, o cümlədən, peşə məktəbi direktorlarının vəzifədən uzaqlaşdırılması barədə tapşırıq verdiyi də deyilirdi. Düzdür, həmin xəbərlər o vaxt təsdiqlənməmişdi, lakin təkzib də edilməmişdi.

İstisna deyil ki, indi bəzi peşə məktəblərində qanunsuzluqların ifşası məhz V.Mirzalıyevin dövründən başlayıb və həmin qanunsuzluqların miqyası o qədər böyük olub ki, nəticədə iş hüquq-mühafizə orqanlarına qədər gedib çıxıb, sonda isə cinayət işinin açılmasına rəvac verib. Həmin cinayət işinin ibtidai istintaqı kim və ya kimlər üçün başağrısına çevriləcək? Bu sualın konkret cavabını öyrənmək üçün yəqin ki, çox gözləmək lazım gəlməyəcək.

***Sənan Mirzə***

# Sahil Babayev də "yolun sonuna" çatdı

## Əmək və əhalinin sosial müdafiəsi naziri postunu itirmək təhlükəsi ilə üzləşib

***Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev tutduğu postla vidalaşa bilər. Buna səbəb son vaxtlar nazirliyin tabeliyindəki ayrı-ayrı qurumlarda aparılan yoxlamalar nəticəsində çoxsaylı qanun pozuntularının aşkarlanmasıdır.***

Məlumatı verən mənbə bildirib ki, Babayevin sələfi Səlim Müslümovun vəzifədən uzaqlaşdırılmasında da oxşar səbəblər həlledici rol oynamışdı. Müslümov xüsusilə Dövlət Sosial Müdafiə Fondunda (DSMF) üzə çıxarılan yeyinti və mənimsəmə hallarının qurbanı olmuşdu.

Lakin eks-nazirdən sonra da DSMF ilə bağlı korrupsiya iddiaları səngiməyib. Hesablama Palatasının ötən il bu qurumda apardığı audit isə həmin iddiaların heç də əsassız olmadığını ortaya çıxarıb. "Məsələ burasındadır ki, 2021-ci il üçün Fondun icra olunmuş gəlir və xərc göstəriciləri üzrə bəzi uyğunsuzluqlar aşkar olunub. DSMF-nin xəzinədarlıq vasitəsilə icra edilmiş gəlirləri və xərcləri barədə məlumatların üzləşdirilməsi ilə bağlı hüquqi aktlarda qeyd edilmiş tələblər tam təmin olunmayıb. Bu isə sair daxilolmaların məbləğinin hesabatlarda 8,7% çox göstərilməsi ilə nəticələnib. 2021-ci il ərzində 40,8 mln. manat məbləğində sığorta haqqı Fond tərəfindən sığortaolunanların fərdi şəxsi hesablarında əks etdirilməyib" deyən mənbələr əlavə edirlər ki, bu sadalananlar Hesablama Palatasının yoxlaması zamanı aşkarlanan nöqsanların az bir qismidir. Bundan başqa, S.Babayev nazir olduqdan sonra da, eynilə, Səlim Müslümovun zamanında olduğu kimi, DSMF-də vəzifəli şəxslərin həbs tendensiyası davam edib. Məsələn, Fondun Şabran rayon şöbəsinin müdiri İlqar Rzayevin bu vəzifədə işlədiyi müddətdə həmin şöbənin mühasibat uçotu sektorunun müdiri Elvin Hüseynov və digər vəzifəli şəxsləri ilə birlikdə vətəndaşların müraciəti əsasında ünvanlı dövlət sosial yardımın təyin edilməsindən imtina edilməsi üçün əsaslar olduğu halda, vəzifə saxtakarlığına yol verməklə dövlət büdcəsinə ümumilikdə 341 min manat ziyan vurması müəyyənləşib. Toplanmış sübutlarla İlqar Rzayev, Elvin Hüseynov və digərlərinə CM-nin 179.3.2 (israf etmə külli miqdarda törədildikdə), 308.2 (vəzifə səlahiyyətlərindən sui-istifadə ağır nəticələrə səbəb olduqda ), 314.2-ci (səhlənkarlıq ağır nəticələrə səbəb olduqda) və digər maddələri ilə yekun ittiham elan edilib. Yaxud, DSMF-nin Cəlilabad rayon şöbəsinin baş mühasibi Pərviz İsgəndərov müxtəlif vaxtlarda rayon sakinlərindən ünvanlı dövlət sosial yardım və pensiya təyin olunması müqabilində pul tələb etməsinə əsaslı şübhələr müəyyən edilib. Daha sonra onun və yaxın adamlarının digər cinayət əməlləri üzə çıxıb. Barələrində həbs qərarı verilib.

Qaynaqlar bildirirlər ki, hazırda ölkə vətəndaşlarının ən çox şikayətləndiyi dövlət orqanlarının başında Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə onun tabeliyindəki qurumlar gəlir. Həmin şikayətlərin motivləri müxtəlifdir - ünvanlı sosial yardımların verilməsində ədalətsizlik, özünəməşğulluq proqramının icrasında ayrı-seçkilik, əlilliyin təyinatında haqsızlıq, pensiyaların dayandırılması... Hətta şəhid ailələri və qazilər belə bu nazirliyin fəaliyyətindəki özbaşınalıqlardan davamlı şəkildə ölkə rəhbərliyinə, mediaya, vətəndaş cəmiyyətinə müraciətlər ünvanlamaqdadır.

Bundan başqa, KİV nazirliyin və onun tabeliyindəki qurumların keçirdiyi tenderlərdə şübhəli məqamlarla bağlı da dayanmadan yazır. Çıxışlarında dövlət vəsaitlərinə qənaət edilməsinin zəruriliyindən danışan S.Babayevin ötən il təkcə Göygöl rayonunda yerləşən Dövlət Sosial Müdafiə Fondunun 3 saylı Psixonevroloji Sosial Xidmət Müəssisəsinin əsaslı təmirinə 27 milyon manat xərcləməsi barədə məlumat yayılmış və bu, geniş ajiotaj doğurmuşdu. Nazirin uşaqpulunun verilməsi əleyhinə açıqlamaları fonunda rəhbərlik etdiyi nazirliyin 2018 - 2021-ci illərdə təkcə 2 şirkətə ("Aznest" və "Aqri Kon") 250 milyon manatlıq satınalma sifariş eləməsi də ölkə mediasının sərt tənqidlərinə tuş gəlmişdi. Üstəlik, KİV bu şirkətlərin nazirlik rəhbərliyinə yaxın şəxslərə bağlı olduğunu yazmış, bu iddialar rəsmən təsdiqlənməsə də, təkzib də edilməmişdi.



Onu da deyək ki, son vaxtlar S.Babayevin fəaliyyəti yalnız medianın, ekspertlərin və ya sadə vətəndaşların tənqid hədəfinə çevrilməyib. Bir çox millət vəkilləri də həm Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, həm də onun tabeliyindəki qurumların bir sıra məsələlərə yanaşmasından narazılıq edirlər. Məsələn, deputat Vahid Əhmədov bir neçə ay öncə "Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayevin "dövlətdən müavinət alan 600 min uşağın olması səbəbindən uşaqpulunun verilməsi gündəmdə deyil" fikirlərinə Milli Məclisdəki çıxışında etiraz eləmişdi. Sitat: "Biz bunu belə hesab etmirik. Müavinətlərin verildiyi strukturu bilmək istəyirik. 600 min uşağın hansı qrupa aid olmasını bilmək istərdik". Başqa bir millət vəkili Sabir Rüstəmxanlı isə əmək və əhalinin sosial müdafiəsi nazirinin parlamentdə pensiyalarla, əlilliklə bağlı məsələlərə aydınlıq gətirməli olduğunu söyləmişdi.

Bütün bunları ümumiləşdirdikdə deyə bilərik ki, S.Babayevin vəzifədən uzaqlaşdırıla biləcəyinə dair ehtimalların reallaşması nə ictimaiyyət, nə media, nə də ekspertlər tərəfindən sürpriz kimi qarşılanmayacaq.

*Toğrul Əliyev*



# Şuşada İşçi Qrupun növbəti iclası keçirildi

***Şuşada Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı yaradılmış Əlaqələndirmə Qərargahının İdarələrarası Mərkəzinin nəzdində fəaliyyət göstərən Enerji təminatı məsələləri İşçi Qrupunun növbəti iclası keçirilib.***

İşçi Qrupun rəhbəri, Azərbaycan Respublikasının energetika nazirinin müavini Elnur Soltanov iclasda çıxış edərək son illərdə ölkəmizdə qəbul edilən strateji sənədlərdə energetika sahəsinə dair işğaldan azad olunmuş ərazilərimizi də əhatə edən tapşırıqların icra vəziyyəti barədə məlumat verib. 2022-ci ildə "Bakı Enerji Həftəsi" çərçivəsində Şuşada "Xalis sıfıra aparan yol: İşğaldan azad edilmiş ərazilərin yaşıl enerji potensialının inkişafı" mövzusunda xüsusi sessiyanı keçirildiyini xatırladan nazir müavini bərpaolunan enerjidən istifadənin genişləndirilməsinə özəl investisiyaların cəlbi istiqamətində görülən işlərdən danışıb.

Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının şöbə müdirinin müavini, İdarələrarası Mərkəzin Katibliyinin rəhbəri Nüsrət Süleymanov çıxış edərək Əlaqələndirmə Qərargahının ötən müddətdə fəaliyyətindən, o cümlədən işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən infrastruktur layihələrindən bəhs edib, onların icrasının İdarələrarası Mərkəz vasitəsilə əlaqələndirilməklə həyata keçirilməsinin əhəmiyyəti və "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın Tədbirlər Planına uyğun olaraq qarşıda duran vəzifələr barədə söz açıb.

İclasda ümumilikdə enerji infrastrukturunun bərpası istiqamətində həyata keçirilən layihələrin icra qrafiki və planlaşdırılan işlər barədə təqdimatlar dinlənilib. Ötən dövrdə işğaldan azad olunmuş ərazilərin qazlaşdırılması layihələri ilə bağlı görülən işlərə dair məlumatlar verilib.

Sonra "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində 2022-2026-cı illərdə "yaşıl enerji" zonasının yaradılması üzrə Tədbirlər Planı"na uyğun olaraq, xüsusilə Şuşa rayonu ərazisində görülmüş tədbirlərə dair təqdimat nümayiş etdirilib. "Yaşıl enerji zonası" Konsepsiyasının tələblərinə uyğun olaraq həyata keçirilən tikinti-quruculuq və reallaşdırılmış layihələrin icrası ilə bağlı görülən işlər müzakirə edilib.

Sonda İşçi Qrupun ötən iclaslarında verilmiş qərarların icrası nəzərdən keçirilib, müzakirə edilən məsələlərin həlli istiqamətində müvafiq qərarlar qəbul olunub.

# DİN polisin kompüterini alaraq qaçan şəxslə bağlı məlumat yaydı



***DİN ötən gün Bərdə rayonunda polisin əlindən bort kompüteri alaraq qaçan şəxs barəsində məlumat yayıb.***

DİN-in Mətbuat Xidmətinin Bərdə regional qrupunun baş inspektoru, polis kapitanı Aslan Qiyaslı "Unikal"a bildirib ki, Bərdə rayonunda polisin əlindən bort kompüteri alaraq qaçmağa cəhd göstərən şəxs barəsində rayon polis şöbəsində toplanmış materiallara müvafiq qaydada baxılması üçün rayon prokurorluğuna göndərilib.

# Bu il Həccə gedəcək şəhid ailələrinə güzəşt ediləcək



***Bu il Həcc ziyarətinə gedəcək şəhid ailələrinə dövlət tərəfindən güzəştlər ediləcək.***

Bunu Modern.az-a açıqlamasında Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) Xarici əlaqələr şöbəsinin müdiri Vüsal Cahangiri bildirib.

"Bu il Həcc ziyarətinə gedəcək şəhid ailələrinə müəyyən güzəştlərin edilməsi nəzərdə tutulub. Güzəştlərin nədən ibarət olduğunu gələn həftə elan edəcəyik", - QMİ rəsmisi deyib.

Məlumat üçün bildirək ki, bu il Qurban bayramı 28-29 iyun tarixlərinə təsadüf edir. Rəsmi açıqlanmasa da, bu il Həcc ziyarətinə gedəcək şəxslərin siyahısının hazır olduğu deyilir.

Qeyd edək ki, ötən ildən fərqli olaraq bu il bəzi ziyarət qadağaları aradan qaldırılıb. Belə ki, yaşı 65-i keçən şəxslər də ziyarətə gedə bilərlər. Lakin zəvvarlardan COVID-19 pasportu tələb olunacaq.

# Qəbələdə "Qəhrəmanlar unudulmur" adlı anım tədbiri keçirildi



***"Zəfər" Şəhid Ailələrinə Dəstək İctimai Birliyinin təşkilatçılığı ilə Qəbələ şəhərində Vətən müharibəsində qəhrəmancasına şəhadətə ucalan "Vətən Müharibəsi Qəhrəmanı" şəhid polkovnik-leytenant Əfqan Abdurahmanovun xatirəsinə həsr olunan "Qəhrəmanlar unudulmur" adlı anım tədbiri keçirilib.***

"Unikal" xəbər verir ki, tədbirdə rayon ictimaiyyəti, şəhid ailələri və qazilər ,Peşə Təmayüllü litseyin kollektivi, gənclər və məktəblilər iştirak edib.

Tədbir iştirakçılarını salamlayan "Zəfər" Şəhid Ailələrinə Dəstək İctimai Birliyinin sədri Sevinc Alızadə çıxışında qeyd edib ki, şəhidlərin xatirəsinin əbədiləşdirilməsi yönündə bu kimi görüşlərin təşkil olunmasının əsas məqsədi şəhidlərin keçdiyi döyüş yolunu və qəhrəmanlıq salnaməsini gənclərə çatdırmaq, onların xatirəsini daima qürurla, ehtiramla yad etməkdir. Qəbələ rayonu icra hakimiyyəti aparatının nümayəndəsi Pərviz Ağayev rayon gəncləri arasında milli ideyaların, dövlətçilik ənənələrinin, qəhrəman şəhidlərimizin təbliği istiqamətində görülən işlər barədə məlumat verib.

# Bakıda 30, rayonlarda 35 dərəcə isti olacaq



***Mayın 26-da Bakıda və Abşeron yarımadasında dəyişkən buludlu olacağı, arabir tutulacağı gözlənilir. Səhər bəzi yerlərdə yağış yağacağı, duman olacağı ehtimalı var.***

Bu barədə "Unikal"a Milli Hidrometeorologiya Xidmətindən məlumat verilib. Bildirilib ki, şimal-şərq küləyi axşam cənub-şərq küləyi ilə əvəz olunacaq.

Havanın temperaturu gecə 16-21° isti, gündüz 25-30° isti olacaq. Atmosfer təzyiqi normadan aşağı 758 mm civə sütunu olacaq. Nisbi rütubət 65-75 % olacaq.

Azərbaycanın rayonlarında şimal və qərb rayonlarından başlayaraq bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Bəzi rayonlarda duman olacaq. Şərq küləyi ayrı-ayrı yerlərdə arabir güclənəcək.

Havanın temperaturu gecə 17-22° isti, gündüz 30-35° isti, dağlarda gecə 7-12° isti, gündüz 15-20° isti olacaq.

# Emin Məmmədov da dövlət şirkətini böhrandan çıxara bilmir

## "Azərxalça"nın göstəriciləri ürəkaçan deyil: ötən il də ziyanla başa vuruldu, yığılmış zərər isə 20 milyon manatı keçdi

***Dövlət şirkəti "Azərxalça" ASC 2022-ci ili 3 milyon 368 min manat xalis zərər ilə başa vurub. Şirkət 2021-ci ili 3 milyon 199 min manat xalis zərər ilə bağlamışdı. Beləliklə, ötən il "Azərxalça"nın xalis zərəri 169 min manat daha çox olub.***



Şirkətin satışdan gəlirləri 2021-ci ildə 1 milyon 606 min manat ikən, 2022-ci ildə 1 milyon 551 min manata düşüb. Yəni 56 min manat azalıb).

Ötən il "Azərxalça"nın cəmi gəlirləri (satış gəliri, faiz gəliri və sair gəlirləri) 2 milyon 506 min manat, cəmi xərcləri 5 milyon 874 min manat təşkil edib. Xərclərin böyük hissəsi ümumi və inzibati xərclərdir.

2022-ci ilin sonunda "Azərxalça"nın yığılmış zərəri 20 milyon 406 min manata çatıb. Halbuki 2021-ci ilin sonunda şirkətin yığılmış zərəri 17 milyon 39 min manat təşkil etmişdi.

Ötən il adıçəkilən ASC-nin cəmi aktivləri 11 milyon 988 min manat azalaraq 2021-ci ilin sonundakı 102 milyon 796 min manatdan 90 milyon 808 min manata düşüb.

"Azərxalça"nın 15 milyon manatlıq nizamnamə kapitalı dövlətə məxsusdur. Şirkət Azərbaycanda xalça və xalça məmulatlarının istehsalını, ixracını, onların ölkə daxilində və xaricdə satışının təşkilini, xalça və xalça məmulatlarının istehsalında yeni texnologiyaların tətbiqini, maddi-texniki bazanın müasirləşdirilməsini və ondan səmərəli istifadəni, habelə bu sahənin inkişafı ilə bağlı digər işləri yerinə yetirir. Xatırladaq ki, 2021-ci ildə "Azərxalça" ASC-nin İdarə heyətinin sədri Vidadi Muradov həbs edilib. Ona CM-nin 179.4 (mənimsəmə xüsusilə külli miqdarda ziyan vurmaqla törədildikdə), 308.2 (vəzifə səlahiyyətlərindən sui-istifadə ağır nəticələrə səbəb olduqda) və 313-cü (vəzifə saxtakarlığı) maddələri ilə ittiham elan edilib. Muradov sonradan həbsxanada xəstəlik səbəbilə dünyasını dəyişib.

Sabiq sədrdən sonra onun postuna 2021-ci ilin martında Emin Məmmədov təyin olunub. Bu təyinatadək o, Azərbaycanda və Avropanın bir sıra ölkələrində çoxsaylı sərgilərin keçirilməsinə rəhbərlik edib. Əməkdar incəsənət xadimidir, "Tərəqqi" medalına layiq görülüb. 2020-ci ildə Rusiya Rəssamlıq Akademiyasının fəxri üzvü seçilib.

E.Məmmədov "Azərxalça" rəhbəri təyin edildikdən sonra gözlənilirdi ki, adıçəkilən şirkət keçmiş rəhbərliyin dövründəki neqativ hallardan tam qurtulacaq və mənfəətlə işləməyə başlayacaq. Lakin son 2 ilin göstəriciləri bu cür optimist proqnozların üstündən xətt çəkir.

"Azərxalça" 1962-ci ildə yaradılıb. Elmi-Yaradıcılıq İstehsalat Birliyi olaraq ləğv edilib və 2016-cı ildə Prezidentin sərəncamı ilə "Azərxalça" Açıq Səhmdar Cəmiyyəti yaradılıb.

Dövlət şirkətinin rəsmi saytında qeyd edilir ki, hazırda "Azərxalça" ASC-nin fəaliyyət coğrafiyası, demək olar, Azərbaycanın bütün bölgələrini əhatə edir. Sitat: " Koreya, Çin, Rusiya və Dubaya fəal şəkildə xalça ixrac edilir. Bakı və rayonlarda fəaliyyət göstərən məşhur otellərdə satış nöqtələrinin sayı artır. "Azərxalça" ASC-nin xalçalarını H.Əliyev adına Bakı Beynəlxalq Hava Limanı, Duty Free zonasından da almaq mümkündür..."

Lakin bunların müqabilində bu dövlət şirkəti ziyanla işləməyə davam edir, yığılmış zərəri isə yuxarıda da qeyd etdiyimiz kimi, artıq 20 milyon manatı ötüb.

Onu da deyək ki, bir müddət öncə iqtisadçı ekspert Natiq Cəfərli "Azərxalça"nın zərərlə işləməsi ilə bağlı maraqlı fikirlər səsləndirmişdi. Onun fikrincə, problem kadrlarda deyil. Qeyd etmişdi ki, hökumət xalçaçılığı inkişaf etdirmək istəyirsə, ayrıca bir qurum yaratmalı deyil. Büdcədən ona çoxlu pul ayrılmamalıdır, həmin pulların yeyilməsinə şərait yaradılmamalıdır. Bunun üçün xalça toxumaq mədəniyyəti və ənənələri olan ailələrə pulsuz avadanlıqlar yardım edilməli, onlar vergidən tam azad olunmalı, belə ailələrə uzunmüddətli və faizsiz kredit xətti açılmalıdır. Bu zaman pullar göyə, ciblərə sovurulmur, xalçanı bu işi bacaran toxuyur, sonra onu satışı bacaranlara verir, onlar da satırlar. Beləliklə, dövlət isə ziyanla işləyən müəssisəyə pul ayırmaq məcburiyyətində qalmır.

Ekspertlərin bir çoxu bu fikri bölüşür. Onların qənaətinə görə, ilbəil zərər edən, borc bataqlığına düşən, nəticədə büdcə üzərində yükə çevrilən bir sıra dövlət şirkətləri kimi, "Azərxalça"nın da özəlləşdirilməsi qaçılmaz görünür...

***Toğrul Əliyev***

# May ayının bütün müavinət və təqaüdləri ödənildi

***Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Sosial Müdafiə Fondu tərəfindən may ayının müavinət, təqaüd və ünvanlı dövlət sosial yardımları da bu gün tam ödənilib.***

Nazirlikdən bildirilib ki, bundan əvvəl, mayın 10-da Bakı, Sumqayıt şəhərləri, Abşeron rayonu, mayın 16-da isə bölgələr üzrə, habelə qulluq stajına görə əlavələr alan pensiyaçıların may ayının pensiya ödənişləri həyata keçirilib.



Beləliklə, bu ay üzrə bütün pensiya, müavinət, təqaüd və ünvanlı dövlət sosial yardımları ödənilib.

Vətən müharibəsi veteranı, şəhidin döyüş yoldaşı polkovnik leytenant Cabir Zeynalov qəhrəmanın döyüş yolunun gənc nəslimizin böyüməsində, hərbi tərbiyəsində böyük rolundan danışıb. Bu cür qəhrəmanlıq salnaməsinin təhsil müəssisələrində təqdimatının əhəmiyyətini vurğulayıb.

Tədbirdə şəhidin döyüş yolundan bəhs edən sənədli film nümayiş olunub, şəhidin adını daşıyan Qəbələ şəhər 3 saylı orta məktəbin şagirdlərinin hazırladığı qəhrəmanlıq ruhlu musiqi kompozisiyası təqdim edilib.

**5.3.15. dini və milli tolerantlıq, millətlərarası münasibətlərin inkişaf etdirilməsi**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Multikultrallığı ilə dünyada nümunə olan Azərbaycanda ermənilərin Xudavəng oyunu

## Robert Mobili: "İşğaldan azad olunmuş ərazilərdə olan alban məbədlərinin varisi Azərbaycan xalqı, dini varisi isə udilərdir"



***Bir neçə gün öncə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) təşkilatçılığı ilə Alban (Qafqaz) Apostol Müstəqil Kilsəsinin varisi olan Azərbaycan Alban-Udi dini icmasının və qeyri-islam dini icmaların nümayəndələri Ermənistanın işğalından azad olunan Kəlbəcər rayonundakı Xudavəng monastır kompleksini ziyarət ediblər. İcma nümayəndələri məbəd kompleksə aid kilsədə dini ayinlər icra edib, dualar oxuyub, şamlar yandırıblar.***

Qeyd edək ki, Xudavəng kilsəsi tarixi alban məbədi olsa da, ermənilər bu kilsəyə iddialarından əl çəkmək istəmir. Bəs görəsən, işğaldan azad edilmiş ərazilərdə olan kilsələrin tarixi alban məbədi olduğu dünyaya necə çatdırılmalıdır?

Alban-udi xristian icmasının sədri, Robert Mobili açıqlamasında bildirib ki, işğaldan azad olunmuş ərazilərdə olan alban məbədlərinin varisi Azərbaycan xalqıdır.Dini varisi isə udilərdir.

Onun sözlərinə görə, işğaldan azad edilmiş ərazilərdəki kilsələr iki əsrdən çoxdur ki, dünyaya erməni kilsəsi kimi təqdim olunub. İndi dünyanı bu məbədlərin alban kilsəsi olduğuna inandırmaq üçün əsrlərlə vaxt lazımdır. R. Mobilinin sözlərinə görə, otuz il ərzində işğalçı tərəfindən məbədlərdə çox şey dağıdılıb, erməniləşdirilib: "Alban irsinin bölgənin tarixi baxımından əhəmiyyətini dərk edən ermənilər istər işğal illərində, istərsə də ondan əvvəl bu məbədləri özününkiləşdirmək üçün çox işlər görüblər. Rus imperiyası isə bu işdə onlara dəstək olub. Saxtakarların səyi ilə Qafqaz Albaniyasının və Alban kilsəsinin irsinə aid olan bir çox şey mənimsənilib. Ən acınacaqlısı isə ermənilərin səyləri ilə həmin kilsələr beynəlxalq səviyyədə erməni irsi kimi qeydə alınıb".

Robert Mobili deyir ki, Qafqaz Albaniyası Azərbaycan tarixinin ayrılmaz hissəsidir. Həmöshbətimiz deyir ki, Alban kilsəsinin işğaldan azad edilmiş Azərbaycan torpaqlarındakı irsi Azərbaycanın multikultral dövlət olduğundan, əsrlərdir bu ənənəni yaşatdığından xəbər verir. Xudavəng monastır kompleksi, Laçın rayonundakı Ağoğlan monastırı, Hadrutdakı məbədlər, Xocavənd rayonunun Tuğ kəndindəki məbədlər böyük dini mərkəzlərdir. Bu alban məbədləri erməni-qriqorian kilsələrinin nəzdində "bərpa edilib". Vandalizm, elementlərin daxil edilməsi faktları var. Əvvəlki dövrlərə , yəni 4-5 əsrlərə aid olan alban irsinin nəhəng təbəqəsi, qədim alban monastırları və kilsələridir. Onlar acınacaqlı vəziyyətdədirlər. Bir çoxları zamanla dağıldı, başqa məqsədlər üçün istifadə edildi. Xocavənd rayonu ərazisində qeydə alınmış 70-ə yaxın alban irsi obyekti var. 50-yə yaxın belə tarixi irs Kəlbəcər rayonundadır, onlardan 35-i qeydiyyatdadır. Laçın rayonunda da çoxlu alban məbədləri var. Ümumiyyətlə, əvvəllər ermənilər tərəfindən işğal olunmuş ərazilərdə 200-ə yaxın alban məbədi, monastır, Alban xristian kilsəsi ilə bağlı tarixi yerlər mövcuddur.

R. Mobili deyir ki, artıq azad edilmiş torpaqlarda alban kilsələrinin pasportlaşdırılması işləri aparılır.

İcma sədri deyir ki, ermənilər təkcə alban məbədlərini özününküləşdirməyiblər. Onlar Azərbaycan xalqına məxsus məscidləri də dağıdaraq xarabalığa çeviriblər. O, işğaldan azad edilmiş ərazilərə səfərləri zamanı bunun canlı şahidi olduğunu söyləyib. R. Mobili bildirir ki, alban kilsələrinin əksəriyyətinin adı erməniсə dəyişdirilib. Onun sözlərinə görə, Alban Apostol Kilsəsinin sonrakı bərpasını dəstəkləmək üçün yaxşı elmi potensial tələb olunur.

"Ciddi potensial olmasa, Alban kilsəsinin əvvəlki statusunu bərpa etmək bizim üçün çox çətin olacaq. Tarixi həqiqət o qədər təhrif olunub ki, biz güclü elmi potensiala - güclü arxeoloqlara, memarlara, ilahiyyatçılara və mütəxəssislərə etibar etməli olacağıq. Təəssüf ki, arxiv materialları ilə bağlı problem var, çünki ermənilər uzun illər bu məsələdə çox çalışıblar" deyə R. Mobili bildirib.

Qeyd edək ki, Kəlbəcərin Vəng kəndindəki Xudavəng monastrı bölgənin ən böyük alban məbədi və əhəmiyyətli memarlıq abidəsidir. Məbədin əsası VI-VII əsrlərdə qoyulub. Kompleks Qafqaz Albaniyası dövlətinin süqutundan bir əsr sonra - IX əsrdə Qarabağın dağlıq hissəsində yaradılmış Alban Xaçın Knyazlığının dini mərkəzi olaraq qalıb. Kompleksdə alban yepiskopunun iqamətgahı və dini maarif mərkəzi fəaliyyət göstərib.

Tarixçilərin məlumatına görə, Xudavəng monastrı Alban Xaçın hökmdarının həyat yoldaşı Arzu Xatun tərəfindən tikilib. Memarlıq üslubuna görə belə ermənilərə heç bir aidiyyatı olmayan, erməniсə "Dadivank" kimi təqdim olunan bu kilsə Azərbaycan Albaniyası memarlığının möhtəşəm nümunələrindən biridir. Monastrın binasının divarlarında yağlı boya ilə çəkilmiş çoxlu şəkillər və yazılar olub. Ağdərədən və Basarkeçərdən gələn ermənilər həmin yazıları balta ilə çaparaq yox etmiş və beləliklə, tarixi saxtalaşdırmağa çalışıblar. Ermənistanın xalqımıza məxsus abidələri dağıtması "Silahlı münaqişə baş verdikdə mədəni dəyərlərin qorunması haqqında" 1954-cü il Haaqa Konvensiyası, "Arxeoloji irsin mühafizəsi haqqında" 1992-ci il Avropa Konvensiyası və "Ümumdünya mədəni və təbii irsin mühafizəsi haqqında" UNESCO-nun 1972-ci il Konvensiyasının tələblərinə ziddir.

***Gülayə Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**



# Ali Məhkəmədə jurnalistlərlə görüş keçirildi

***Ali Məhkəmədə Femida Dialoq Platforması üzrə media nümayəndələri ilə görüş keçirilib.***

Tədbirdə Ali Məhkəmənin sədri İnam Kərimov, Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov və media orqanlarının rəhbərləri iştirak edib.

Tədbiri giriş sözü ilə açan Ali Məhkəmənin sədri İnam Kərimov qeyd edib ki, ölkəmiz böyük qlobal əhəmiyyətli proseslərdə regionun aparıcı liderinə çevrilir və yeni çağırışlarla qarşılaşır: "Bu müasir çağırışlara cavab vermək üçün məhkəmələrin müasir tələblərlə uyğun qurulması, ədalət mühakiməsinin həyata keçirilməsində yüksək peşəkarlığın artırılması və idarəetmədə innovativ texnologiyaların tətbiqi günün tələblərindəndir.

Ali Məhkəmə olaraq məhz bu səbəblərdən məhkəmə islahatlarına dəstək vermək üçün Femida Dialoq Platformasını təsis etmişik. Bu platforma çərçivəsində hüquqşünaslar, hüquq müdafiəçiləri, eləcə də vətəndaş cəmiyyəti institutları ilə müzakirələr təşkil olunur. Femida Dialoq Platforması üzrə sayca ikinci görüşün media nümayəndələri ilə keçirilməsi ictimai-siyasi həyatın əsasını təşkil edən medianın cəmiyyətimizdəki böyük rolundan irəli gəlir".

İ.Kərimov qeyd edib ki, media cəmiyyətin hər bir üzvünü onlar üçün əhəmiyyət kəsb edən məsələlər haqqında daha yaxşı məlumatlı olmağa imkan verən faktlarla təmin edir: "Eyni zamanda informasiyanın mötəbərliyinin və dəqiqliyinin yoxlanılması, eləcə də təhlil olunması üçün müxtəlif baxışlara, müzakirə və tənqidlər üçün şərait yaradır. Bütün bunlar isə cəmiyyətdə sağlam rəqabəti təmin etməklə inkişafa dəstək vermiş olur.

Ali Məhkəmənin sədri bildirib ki, bu gün ölkəmizdə həm qanunvericilik, həm də məhkəmə praktikası ilə media azadlığı təmin olunur: "2001-ci ildə ölkəmiz "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Avropa Konvensiyasına qoşulub və həmin vaxtdan Konvensiya ölkə qanunvericiliyinin ayrılmaz tərkib hissəsidir. Bununla da Avropa Məhkəməsinin presedent hüququ yerli məhkəmələr tərəfindən Konvensiyanın tərkib hissəsi kimi qəbul edilərək təcrübədə geniş tətbiq edilir. Bu da nəticə etibarı ilə, media azadlığının ölkəmizin məhkəmələri tərəfindən Avropa Məhkəməsi standartlarına uyğun təmini deməkdir".

Daha sonra çıxış edən Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov isə deyib ki, media subyektləri ilə cəmiyyət və dövlət arasında münasibətlərin tənzimlənməsi məqsədilə normativ hüquqi bazanın təkmilləşdirilməsinə dair təkliflər hazırlamaq, medianın fəaliyyətinə mane olan problemlərin həllinə dair təkliflərini dövlət və yerli özünüidarəetmə orqanlarına təqdim etmək Agentliyin daim diqqətində saxladığı məsələlərdəndir. Media subyektlərinin inkişafı üçün əlverişli şəraitin yaradılmasının ölkəmizdə plüralizmin, fikir və söz azadlığının təmin edilməsinin bariz sübutu olduğunu vurğulayan Əhməd İsmayılov media sahəsində islahatların əsas məqsədinin media mühitinin sağlamlaşdırılmasına və keyfiyyətli xəbər istehsalının dəstəklənməsinə yönəldiyini qeyd edib.

Tədbir çıxışlarla davam etdirilib.

# Baş redaktor həbs edildi



***"Yaşıl elm" platformasının baş redaktoru Taryel Abdullayev həbs edilib.***

"Unikal" apa-ya istinadən xəbər verir ki, Taryel Abdullayev dələduzluqda ittiham olunur.

Onun barəsində Cinayət Məcəlləsinin 178.2.2-ci, 178.2.3. 178.2.4-cü (dələduzluq) maddələri ilə ittiham verilib.

İş üzrə 4 nəfər zərərçəkən şəxs var. Taryel Abdullayev həmin şəxslərə xaricdə təhsil almaq adı ilə dələduzluq etməkdə ittiham edilir.

Nərimanov rayon Məhkəməsində hakim Vüsal Qurbanovun sədrliyi ilə Taryel Abdullayev barəsində həbs qətimkan tədbirinin seçilməsi ilə bağlı istintaq orqanının vəsatətinə baxılıb.

Məhkəmə vəsatəti təmin edib və Taryel Abdullayev barəsində 3 aylıq həbs qətimkan tədbiri seçilib.

Taryel Abdullayev bundan sonra məhkəməyə barəsindəki həbs qətimkan tədbirinin ev dustaqlığı qətimkan tədbiri dəyişdirilməsi ilə bağlı müraciət edib. Məhkəmə onun müraciətini təmin etməyib.

# Qanunsuz balıq ovlayanlar cəzalandırıldı



***Xəzər dənizinin Xaçmaz və Şabran rayonları akvatoriyasında qanunsuz balıq ovlayan şəxslər saxlanılıb.***

Bu barədə "Unikal"a Dövlət Ekoloji Təhlükəsizlik Xidmətindən məlumat verilib.

Bildirilib ki,araşdırma zamanı balıq ovlayan şəxslərin Xaçmaz rayon sakinləri Elşad Əzizov, Güloğlan Baxışov, Şabran şəhər sakinləri Ədalət Fərzəliyev, Qafqaz Quliyev olduğu müəyyən edilib və onlardan istifadəsi qadağan olunmuş ov alətləri götürülüb. Faktlarla bağlı qanun pozucuları barəsində protokol tərtib olunub və qanunamüvafiq tədbirlər görülüb.

# "YAŞAT" daha bir Vətən müharibəsi əlilinin tibb xərclərini qarşılayıb

***Vətən müharibəsi əlili, "Vətən müharibəsi iştirakçısı" medalı ilə təltif olunan Nurlan Vəliyevin tibb xərcləri "YAŞAT" Fondu tərəfindən qarşılanıb.***

Bu barədə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən bildirilib.

Qeyd olunub ki, Fondun hesabatları və xərclənən vəsaitlərlə bağlı ətraflı məlumatı yashat.gov.az rəsmi internet saytının "Hesabatlar" (https://yashat.gov.az/report/tableau) bölməsindən əldə etmək mümkündür.

# Azərbaycanda da maska cərimələri qaytarılacaq?



***Xəbər verdiyimiz kimi, Türkiyədə pandemiya zamanı maska taxmayanların cərimələri geri qaytarılacaq.***

Bakıvaxtı.az Türkiyə mətbuatına istinadla xəbər verir ki, "Resmi Gazete"də dərc olunan məlumata görə, koronavirus dövründə maska taxma qaydasının pozulmasına görə cəzalar ötən il ləğv olunub, lakin cəriməni ödəyənlərin pulu geri qaytarılmayıb.

Pandemiya dövründə çıxarılan cəzaların bərpası üçün Konstitusiya Məhkəməsinə edilən müraciətin nəticəsi olaraq, "Resmi Gazete"də dərc olunan qərarla ödənilən cərimələrin geri qaytarılması mümkün olacaq.

Qardaş ölkədə qəbul olunan bu qərardan sonra Azərbaycanda da pandemiya zamanı çıxarılan cəzaların ləğv olunacağı barədə söz-söhbət dolaşır.

Detilənlərlə bağlı Bakıvaxtı.az Nazirlər Kabinetinə sorğu göndərib. "Bununla bağlı hər hansı bir məlumat olacağı təqdirdə bildiriləcək", - deyə Nazirlər Kabinetindən bildirilib.

# Qabiliyyət imtahanları üçün qeydiyyata start verildi




***2023/2024-cü tədris ili üçün ümumi (9 illik) orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinin xüsusi qabiliyyət tələb edən ixtisasları (XQTİ) üzrə qabiliyyət imtahanlarında iştirak etmək istəyən abituriyentlərin elektron qeydiyyatı başlanır.***

Bu barədə "Unikal"a Dövlət İmtahan Mərkəzindən məlumat verilib. Bildirilib ki, abituriyentlər müvafiq keçidə daxil olub qeydiyyatdan keçə bilərlər.

Bədən tərbiyəsi və idman, Teatr, kino və xoreoqrafiya sənəti, Musiqi sənəti və Təsviri sənət istiqamətlərinin komissiyaları üzrə qeydiyyat mayın 25-dən iyunun 5-dək aparılacaq.

Ümumi orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinin XQTİ-ləri üzrə qabiliyyət imtahanlarında iştirak etmək istəyən abituriyentlər yalnız 1 istiqamətə aid ən çox 6 komissiya üzrə qeydiyyatdan keçə bilərlər.

Xüsusi qabiliyyət tələb edən ixtisasların müsabiqəsinə buraxılış (əvvəlki illərin məzunları qəbul) imtahanında topladıqları ümumi balı 50 (fənlər üzrə bal məhdudiyyəti tətbiq edilmir) və daha yüksək olan və müvafiq komissiya tərəfindən keçirilən qabiliyyət imtahanlarından "məqbul" alan abituriyentlər buraxılırlar. "Xoreoqrafiya sənəti" və "Rəqs müəllimliyi" ixtisaslarının müsabiqəsində isə ümumi balı 30 (fənlər üzrə bal məhdudiyyəti tətbiq edilmir) və daha yüksək olan abituriyentlər iştirak edə bilərlər. Bu barədə ətraflı məlumatı 2023-cü ildə nəşr edilən xüsusi qabiliyyət imtahanlarının istiqamətləri üzrə "Abituriyent" jurnalının xüsusi buraxılışlarından əldə edə bilərsiniz. Burada ümumi (9 illik) orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinin xüsusi qabiliyyət tələb edən ixtisasları üzrə məlumatlar, qabiliyyət imtahanlarının proqramları, qiymətləndirmə meyarları, imtahanlara hazırlıqla bağlı tövsiyə və məsləhətlər, tapşırıq nümunələri, əyani vəsaitlərdən reproduksiyalar, şəkillər və digər faydalı məlumatlar əksini tapıb.

Qabiliyyət imtahanlarının iyun-avqust aylarında keçirilməsi nəzərdə tutulur. Abituriyentlərə "Qabiliyyət imtahanına buraxılış vərəqəsi"ni çap edə biləcəkləri tarixlər haqqında məlumat DİM-in internet səhifəsində veriləcək. "Qabiliyyət imtahanına buraxılış vərəqəsi"ndə qabiliyyət imtahanlarının tarixi, keçiriləcəyi ünvan və vaxt göstəriləcək.

Musiqi sənəti istiqamətinin komissiyaları üzrə qeydiyyatdan keçmək istəyən abituriyentlər (223, 224, 225, 227, 228, 323, 324, 327, 423, 424, 623, 624, 627 və 723-cü komissiyalar istisna olmaqla) ən az 5 illik musiqi təhsili haqqında sənədə malik olmalıdırlar. Abituriyentlərin musiqi təhsili haqqında məlumatı (təhsil haqqında sənədin seriya və nömrəsi, bitirdiyi təhsil müəssisəsinin adı, bitirdiyi ixtisas və ya təhsil aldığı musiqi aləti) DİM tərəfindən yaradılan "Musiqi məktəbi-məzun" Dövlət Elektron Məlumat Sistemindən götürülür. Əgər abituriyent haqqında məlumat bu sistemdə yoxdursa, həmin abituriyent musiqi ixtisası üzrə bitirdiyi təhsil müəssisəsinə müraciət etməlidir.

Musiqi üzrə xaricdə təhsil almış vətəndaşlar DİM-ə müraciət etməlidirlər. Bunun üçün həmin abituriyentlər musiqi təhsili haqqında sənədin əslini və surətini, şəxsiyyəti təsdiq edən sənədi DİM-ə şəxsən təqdim etməlidirlər.

Qeydiyyatdan keçmək üçün abituriyent şəxsi kabinetinin istifadəçi adı və parolundan istifadə etməli və tələb olunan məbləği (qeydiyyatdan keçmək istədiyi komissiyaların sayından asılı olaraq) şəxsi kabinetindəki hesabına əlavə etməlidir. "Azərbaycan Respublikasında ali və orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulu imtahanlarının təşkilinin tənzimlənməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamına əsasən, ali təhsil müəssisələrinə tələbə qəbulu ilə bağlı imtahanda iştirak üçün ilk dəfə müraciət edən Azərbaycan Respublikasının vətəndaşlarının (ümumi təhsil müəssisələrini bitirən) cari ildə ilk seçdiyi (qeydiyyatdan keçdiyi) komissiya üzrə qabiliyyət imtahanında iştirakı dövlət büdcəsinin vəsaiti hesabına (ödənişsiz) olacaq. "Azərbaycan Respub li-ka sında ali və orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulu imtahanlarının təşkilinin tənzimlənməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamına dəyişikliyə əsasən aşağıdakı 5 kateqoriyadan olan Azərbaycan Respublikası vətəndaşlarının (yalnız ümumi təhsil müəssisələrini bitirən) qəbul imtahanlarında (bütün mərhələ və cəhdlər üzrə) iştirakı dövlət büdcəsinin vəsaiti hesabına həyata keçirilir:

- Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin uşaqları;
- şəhid ailəsinin üzvləri;
- valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar;
- məcburi köçkün statusu olan şəxslər;
- I və II dərəcə əlilliyi müəyyən edilmiş şəxslər, o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlar.

Qəbul (buraxılış) imtahanını Azərbaycan dilindən fərqli dildə verən abituriyentlər Azərbaycan dili (dövlət dili kimi) üzrə imtahanın nəticəsindən asılı olmayaraq qeydiyyatdan keçə bilərlər. Lakin bu imtahandan "qeyri-məqbul" alan abituriyentlərin nəzərinə çatdırırıq ki, onlar 18 iyun tarixində keçiriləcək ikinci Azərbaycan dili imtahanında "məqbul" aldıqları təqdirdə müsabiqəyə buraxılırlar. Həmin imtahana qeydiyyat 26 may - 5 iyun tarixlərində aparılacaq.

# Rayonlarda meliorativ tədbirlər davam etdirilir



***Xızıda 20 km uzunluqda kollektor-drenaj şəbəkəsi lildən təmizlənir. Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin nümayəndəsi Dilqəm Şərifov "Unikal"a bildirib ki, Ölkə ərazisində meliorativ tədbirlərin doğru zamanda aparılması nəticəsində torpaqların münbitliyi hər keçən il artır.***

Artıq əvvəlki illərdə əkin aparılmayan sahələrdə də müxtəlif növ kənd təsərrüfatı bitkiləri əkilir. Şoranlaşan torpaqlar kollektor-drenaj sistemlərinin vaxtında təmizlənməsi ilə əkinə yararlı vəziyyətə gətirilir. Hazırda bu istiqamətdə Sumqayıt Melioservis İdarəsi tərəfindən Xızı rayon ərazisində işlər həyata keçirilir. Rayon ərazisindən keçən və uzunluğu 20 km olan kollektor şəbəkəsi idarənin texnikaları vasitəsi ilə lildən təmizlənir. İdarə bu işləri bir-neçə istiqamətdə davam etdirir.

İdarə tərəfindən bu ilin əvvəlindən etibarən kollektor-drenaj sistemlərində aparılan lildən təmizləmə işləri kollektorlarda qurunt və səth sularının normal axıdılmasına, torpaqların meliorativ cəhətdən yaxşılaşdırılmasına müsbət təsirini göstərib. Qeyd edək ki, Sumqayıt Melioservis İdarəsi Xızı rayonu ilə yanaşı Ağstafa və Qazax rayonlarında da 9 kəndin suvarma təminatını yaxşılaşdırmaq üçün meliorativ tədbirlərini davam etdirir.

Salyan və Neftçala rayonlarında kollektorlar lildən təmizlənir. Dilqəm Şərifov bildirib ki, Baş Mil-Muğan Kollektorunda lildən təmizləmə işləri həyata keçirilir. Hazırda Baş Mil Muğan Kollektoru İstismarı İdarəsinin texnikaları bir-neçə istiqamətdə bu işləri həyata keçirir. İdarə üzrə 2022-ci ildə 223 km kollektor drenaj sistemi təmir edilib və lildən təmizlənib. Bundan Salyan rayonu üzrə 147 km, Neftçala rayon üzrə 76 km lildən təmizləmə işləri aparılıb. İdarə üzrə ötən il 1140 min metr m3 torpaq işi görülüb ki, Salyan rayonu üzrə 783 min m3 Neftçala rayonu üzrə 357 min m3 lildən təmizlənmmə işləri yerinə yetirilib. Bundan başqa 1 ədəd akveduk və 1 ədəd nasos stansiyası əsaslı təmir olunaraq istismara yararlı hala salınıb, 28 ədəd hidrotexniki qurğu cari təmir edilib.

Baş Mil-Muğan Kollektoru İstismarı İdarəsi ötən il olduğu kimi bu il də meliorativ tədbirlərini davam etdirir. İlin əvvəlindən bu günə kimi idarə tərəfindən 47 km Salyan rayon ərazisində, 10 km Neftçala rayonu ərazisində kollektor drenaj sistemi lildən təmizlənərək, 228 min m3 torpaq işi görülüb. Bundan başqa 9 ədəd hidrotexniki qurğu cari təmir edilib istismara yararlı hala gətirilib. Hazırda texnikalar vasitəsilə plana uyğun olaraq bir-neçə istiqamətdə, o cümlədən Salyan rayonu ərazisində lildən təmizləmə işləri həyata keçirilir.

İdarə tərəfindən fermerlərin, kənd sakinlərinin əkin sahələrinin yaxınlığından keçən kollektorlarda daim lildən təmizləmə işləri həyata keçirilir. Bunun nəticəsi olaraq fermerlər münbitləşən torpaqlarda əkin apara bilirlər. Əvvəllər şoranlaşmaya məruz qalan torpaqlarda indi müxtəlif növ kənd təsərrüfatı bitkiləri əkilir.

Qeyd edək ki, Baş Mil-Muğan Kollektorunun ümumi uzunluğu 140 km-dir. Bundan 22 km-i Salyan, 18 km-ə yaxını Sabirabad, 37 km-i Neftçala, 63 km-i isə Saatlı rayonunun ərazisinə düşür. Ümumiyyətlə Baş Mil Muğan Kollektorunun əsas məqsədi Mil-Qarabağ və Muğan - Salyan düzlərinin suvarılan torpaqlarından sızan qrunt, sel və məişət sularının Baş Mil Muğan Kollektoru vasitəsilə maneəsiz, heç bir enerji sərf etmədən öz axını ilə Xəzər dənizinə axıtmaqdır.

***Hüseyn İsgəndərov***



## İstehlaka yararsız süd məhsulları məhv edildi

***İstehlaka yararsız qida məhsulları məhv edilib.***

Bu barədə "Unikal"a Qida Təhlükəsizliyi Agentliyindən (AQTA) məlumat verilib.

Bildirilib ki, "Sun Food" MMC-nin istehlaka yararsız və istifadə müddəti bitmiş qida məhsullarının məhv edilməsi ilə bağlı Agentliyə müraciəti əsasında ümumi çəkisi 33.6 ton müxtəlif növ süd məhsulu "EkoSum" MMC-yə məxsus tullantıların zərərsizləşdirilməsi poliqonunda məhv edilib.

## Bakıda qadına qarşı soyğunçuluq edildi

**Bakıda qadına qarşı soyğunçuluq edilib.**

"Unikal" xəbər verir ki, Binəqədi RPİ 5-ci Polis Bölməsi əməkdaşlarının daxil olan məlumat əsasında keçirdikləri əməliyyat tədbiri nəticəsində mayın 23-də Dərnəgül qəsəbəsi ərazisində bir qadının 100 manatını soyğunçuluq yolu ilə talamaqda şübhəli bilinən Ağdam rayon sakini, əvvəllər məhkum olunmuş Elşən Əhmədov müəyyən olunaraq saxlanılıb.

Araşdırma aparılır.

## Əhaliyə ödənişli xidmətlərin statistikası

***2023-cü ilin yanvar-mart aylarında Ucar rayonunda əhaliyə göstərilən ödənişli xidmətlərin dəyəri müqayisəli qiymətlərlə 2022-ci ilə nisbətən 4,0 faiz artaraq 10495,0 min manat təşkil edib.***

Hüquqi şəxslər tərəfindən əhaliyə 2403,0 min manat xidmət göstərilmişdir ki, bu da xidmətlərin ümumi dəyərinin 22,9 faizini təşkil edir.

2023-cü ilin yanvar-mart aylarında ictimai iaşə dövriyyəsi 2022-ci illə müqayisədə real ifadədə 21,9 faiz artaraq 1548,6 min manat olub.

Özəl sektorda göstərilən iaşə xidmətlərinin 22,6 faizi hüquqi şəxs statuslu müəssisələrin, 77,4 faizi isə hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fərdi sahibkarların iaşə fəaliyyəti nəticəsində formalaşıb.

### Əmtəə bazarının statistikası

2023-cü ilin yanvar-mart aylarında Ucar rayonunda pərakəndə ticarət şəbəkələrindən əhaliyə 59835,5 min manatlıq və ya 2022-ci ilin müvafiq dövrü ilə müqayisədə real ifadədə 0,3 faiz çox istehlak malları satılıb.

2023-cü ilin yanvar-mart aylarında pərakəndə ticarət şəbəkəsindən əhaliyə satılmış ərzaq məhsulları, içki, tütün məmulatlarının həcmi artaraq 32745,0 min manat, qeyri-ərzaq mallarının həcmi artaraq 27090,5 min manat olub.

Ticarət dövriyyəsinin həcmində ərzaq, içki, tütün məmulatları və qeyri-ərzaq mallarının xüsusi çəkiləri müvafiq olaraq 54,7 faiz və 45,3 faiz təşkil edib.

***Cəlil Vəliməmmədov***
***Ucar Rayon Statistika İdarəsinin aparıcı məsləhətçisi***

# Qazilərdən bəhs edən "Vətən Fədailəri" adlı tədbir keçirilib

***23 may tarixdə Xətai rayon Mərkəzi Kitabxanası və LM Akademiyasının birgə təşkilatçılığı ilə Xətai rayon Mərkəzi Kitabxanada "Vətən Fədailəri" adlı qazilərin həyat yolundan bəhs olunmuş tədbir təşkil olundu.***

Tədbirdə Finlandiya Azərbaycanlıları Assosiyasının həmsədri, Finlandiya Qadınlar Cəmiyyətinin sədri Arzu Oktay,Xətai rayonu icra hakimiyyətinin "Vətən müharibəsi iştirakçıları və Şəhid ailələri ilə işin təşkili" şöbəsinin böyük məsləhətçisi Bəkir Əsgərzadə, Qazi, mayor Taleh Eyyubov, Aran Media qrupunun rəhbəri Şeyda Əzizova, Xəzər rayonu, Mərdəkan qəsəbəsi, H.Z.Tağıyev adına 120 nömrəli məktəbin 11-ci sinif şagirdi, gənc xanəndə Sevinc Süleymanlı, Cəbrayıl rayonu Kazım Məmmədov adına Böyük Mərcanlı kənd tam orta məktəbin müəllim və şagird kollektivi, 44 günlük vətən müharibəsində sağlamlıqlarını itirmiş qazilər,Şəhid baş leytenant Amin Gülməmmədovun atası Mais Gülməmmədov, "VƏTƏN FƏDAİLƏRİ" lahiyə dəsdəkcisi qazi oğlu şəhid qardaşı Şahin Məmmədov ,"İnkşafa və islahatlara dəstək"İB sədri və Öndər.tv"nin təsiscisi Ramil Əliyev, Mədəniyyət juranalının redaktoru Qurban Məmmədov və digər qonaqlar iştirak ediblər.



Öncə vətənimizin ərazi bütövlüyü uğrunda şəhid olanların ruhu birdəqiqəlik sükutla yad edilib. Daha sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

44 günlük Vətən müharibəsində qələbəmizi bizə qazandıran müzəffər ordumuzun əsgər və zabitləri qarşısında baş əyir, şəhidlərimizə Allahdan rəhmət diləyirik.Vətənimizin igid oğulları, Müzəffər Ali Baş Komandan Cənab İlham Əliyevin başçılığı ilə döyüşərək, qanları bahasına bu qələbəni bizə qazandırdıqlarını vurğulayan aparıcılar qeyd etdilər ki, zəfərimizi təmin edən əsas amillərdən biri xalqımızın Ali Baş komandanın ətrafında Dəmir Yumruq kimi birləşməsi oldu.

Finlandiya Azərbaycanlıları Assosiyasının həmsədri, Finlandiya Qadınlar Cəmiyyətinin sədri Arzu Oktay çıxışı zamanı qeyd edib ki,Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda qəhrəmanlıq göstərmiş vətən övladlarının döyüş yolunun öyrənilməsi, canlarından keçmiş igidlərin xatirəsinin əbədiləşdirilməsi, onların şücaətinin təbliği, şagirdlərdə hərbi vətənpərvərlik ruhunun yüksəldilməsi və azərbaycançılıq məfkurəsinin möhkəmləndirilməsində təhsil müəssisələrinin böyük rolu var.

Sonra Xətai rayonu icra hakimiyyətinin Vətən müharibəsi iştirakçıları və Şəhid ailələri ilə ilə işin təşkili şöbəsinin böyük məsləhətçisi ehtiyyatda olan zabit Bəkir Əsgərzadə, qazi, mayor Taleh Eyyubov, Mədəniyyət jurnalının redaktoru Qurban Məmmədov, vətən müharibəsi iştirakçıları, şəhid ailələrinin üzvüləri və digər qonaqlar çıxış etdilər. Tədbirin ədəbi-bədii hissəsində məktəblilər vətənpərvərlik mövzusunda, şeirlər və vətənpərvərlik ruhda ifalarla çıxış ediblər.

Sonda xatirə şəkilləri çəkildi.

# Ermənistanın müdafiə naziri KTMT-nin iclasına getmədi



***Ermənistanın müdafiə naziri Minskdə baş tutan KTMT-nin iclasına getməyib.***

"Unikal" xəbər verir ki, bu barədə Ermənistan müdafiə nazirliyinin mətbuat katibi Aram Torosyan bildirib.

Onun sözlərinə görə, Suren Papikyan KTMT-nin Müdafiə Nazirləri Şurasının iclasında iştirak etmir. Papikyanın əvəzinə Ermənistan Müdafiə Nazirliyinin təşkilatın birgə qərargahındakı nümayəndəsi Artak Tonoyan Belarusun paytaxtına gedib. Qeyd edək ki, KTMT ölkələrinin Müdafiə Nazirləri Minskdə regional çağırışları və təhdidləri müzakirə etmək üçün toplaşıb. Rusiyanın müdafiə naziri Sergey Şoyqu da Minskdə səfərdədir.

*Ağarza Elçinoğlu*

# Rusiya 5 İsveç diplomatını ölkədən çıxarır

***İsveçin Rusiyadakı səfiri bu ölkənin Xarici İşlər Nazirliyinə (XİN) çağırılıb.***

"Unikal" xəbər verir ki, Rusiya cavab olaraq beş isveç diplomatı ölkədən çıxarır. Rusiya XİN-in yaydığı məlumata görə, Rusiya Federasiyası 2023-cü il sentyabrın 1-dən cavab olaraq İsveçin Sankt-Peterburqdakı Baş Konsulluğunun fəaliyyətinə verdiyi razılığı geri götürür. Həmçinin, sentyabrın 1-dən Rusiya İsveçin Göteborqdakı Baş Konsulluğunun fəaliyyətini dayandıracaq.

# İran 2000 km mənzilli ballistik raketini təqdim etdi

***İran "Xeybər" adlı ən son ballistik raketini nümayiş etdirib.***

"Unikal" İRNA-ya istinadla xəbər verir ki, raket İranın Müdafiə və Silahlı Qüvvələrə Dəstək Naziri, general Məhəmməd-Rza Aştianinin iştirakı ilə Xürrəmşəhrin Qurtuluş Günü münasibətilə keçirilən mərasimdə təqdim edilib. "Xürrəmşəhr" raket ailəsinin ən son versiyası olan "Xeyber" raketi 2000 km uçuş məsafəsinə malik maye yanacaqla işləyən raketdir. O, 1500 kq-a qədər çəkisi olan döyüş başlığını daşıya bilir.

*Ağarza Elçinoğlu*

# Rusiya Krımdan hərbi sənədləri "evakuasiya edir"

***Rusiya Krımdan gizli hərbi sənədləri götürür.***

"Unikal" xəbər verir ki, bu barədə Ukrayna Milli Müqavimət Mərkəzi məlumat yayıb.

Qeyd olunur ki, mayın əvvəlində əsgərlər hərbi sənədləri yarımadadan Rusiya ərazisinə "evakuasiya ediblər". "Həmçinin Rusiya silahlı qüvvələrinin hərbi idarəsindən şifrələmə avadanlığı götürüblər", - məlumatda deyilir.

*Seymur Əli*

# Xameneinin Britaniyadakı ofisi bağlandı

***İran İslam Respublikasına bağlı İngiltərə İslam Mərkəzi bağlanıb.***

"Unikal" xəbər verir ki, bu barədə "Iran International" məlumat yayıb. Məlumata görə, Londonda yerləşən İngiltərə İslam Mərkəzi növbəti xəbərdarlığa qədər bütün mədəni və təhsil fəaliyyətini dayandırdığını elan edib.

# XİN İtaliyaya başsağlığı verdi

***Azərbaycan Xarici İşlər Nazirliyi İtaliyaya başsağlığı verib.***

"Unikal" xəbər verir ki, XİN-in tviter hesabında edilən paylaşımda deyilir:

"İtaliyanın Emilia-Romagna bölgəsində baş verən təbii fəlakət nəticəsində həlak olanların ailələrinə dərin hüznlə başsağlığı veririk. Dualarımız itkin düşənlərlədir və yaralılara şəfa diləyirik". Qeyd edək ki, Emilia-Romagna bölgəsində daşqınlar nəticəsində 14 nəfər həlak olub.

# "PKK-nın İranda komanda qərargahı var" - Soylu

***"İran-Türkiyə sərhədindəki divar terrorizmin qarşısının alınması məqsədi ilə çəkilib".***

"Unikal" xəbər verir ki, bunuTürkiyənin daxili işlər naziri Süleyman Soylu "Habertürk TV"nin canlı efirində deyib.

O, Iranda PKK terror təşkilatının komanda qərargahının olduğunu deyib. Soylu, həmçinin, 2016-cı ildən bu günə kimi 2 milyon 836 min 775 nəfərin Türkiyəyə qanunsuz yolla girişinin qarşısının alındığını bildirib.



# Sinan Oğandan tənqidlərə cavab: Hər şeyin öz vaxtı var

***Türkiyədə ATA İttifaqının prezidentliyə namizədi olmuş Sinan Oğan ikinci tur seçkilərində AKP lideri, hazırkı dövlət başçısı Rəcəb Tayyib Ərdoğanı dəstəklədiyinə görə onu tənqid edənlərə cavab verib.***

Azərbaycan əsilli siyasətçi tənqidlərə cavab olaraq instaqram hesabında paylaşım edib. "Heç kimə kin saxlamıram, amma kimin nə etdiyini də unutmuram. Bəzən çox şeylər qarşısında səssiz qalıram. Amma necə deyərlər, hər şeyin öz vaxtı var. Mən doğru vaxtı gözləyirəm. Heç bir işdən xəbərsiz olduğumu düşünməyin. Sadəcə bunlarla maraqlanmaq istəmirəm", - deyə S.Oğan vurğulayıb.



Qeyd edək ki, Sinan Oğanın seçkilərin ikinci turunda AKP lideri, hazırkı prezident Rəcəb Tayyib Ərdoğanı dəstəkləməsi siyasi müstəvidə geniş müzakirələrə səbəb olub. Ərdoğan tərəfdarları Oğanın qərarını alqışla, bəzi müxalifət nümayəndələri isə təhqirlə qarşılayıb.

# "İran və Ermənistan Zəngəzur dəhlizinin açılmasına mane olur" - Kılıçdaroğlu

***"Bakı ilə Istanbul arasında heç bir fərq yoxdur. Əminəm ki, digər partiyaların liderləri də Azərbaycan-Türkiyə münasibətlərinə mənim kimi baxırlar".***

"Unikal" xəbər verir ki, bunu Türkiyə prezidentliyinə namizəd, CHP lideri Kamal Kılıçdaroğlu deyib.

O, Zəngəzur dəhlizi ilə bağlı verilən suala cavab verib: "Bilirsiniz, Zəngəzur dəhlizi var, onu açmaq lazımdır. Lakin bu dəhlizin açılması tərəflərin razılığından və Türkiyənin Azərbaycana qeyd-şərtsiz yardımından asılıdır. İran və Ermənistanın birliyi bu dəhlizin açılmasına müəyyən qədər mane olur. Türkiyə potensialından istifadə etsə, bölgədə çox güclü olar. Əgər bu dəhlizin açılmasının həm Türkiyə, həm İran, həm Ermənistan, həm də türk dövlətlərinə böyük fayda verəcəyini inandırıb izah edə bilsək, yaradılan iqtisadi nəticəni bütün ölkələr bölüşə biləcək. Biz o dəhlizi genişləndirməliyik".

*Ağarza Elçinoğlu*



# "Belarusdakı nüvə silahını Rusiya idarə edir" - Şoyqu

***"Belarus ərazisində qeyri-strateji nüvə silahı yerləşdirən Rusiya onu respublikaya vermir, nüvəyə nəzarət edir və onun istifadəsi ilə bağlı qərar Moskvanın ixtiyarındadır".***

"Unikal" xəbər verir ki, bunu Rusiyanın müdafiə naziri Sergey Şoyqu deyib.

"Rusiya nüvə silahını Belarus Respublikasına vermir: onlara nəzarət və onlardan istifadə qərarı Rusiya tərəfindədir", - deyə nazir Rusiyanın qeyri-strateji nüvə si-



lahlarının Belarusda xüsusi bölmədə saxlanması prosedurunu müəyyən edən sənədlərin imzalanması zamanı deyib.

Belarus tərəfi adından sənədləri respublikanın müdafiə naziri Viktor Xrenin imzalayıb.

Bundan əlavə, Şoyqu qeyd edib ki, gələcəkdə İttifaq dövlətinin təhlükəsizliyini təmin etmək və hərbi-siyasi vəziyyətə cavab vermək üçün əlavə tədbirlər görülə bilər.

*Ağarza Elçinoğlu*

# FTX Rusiyadakı atom elektrik obyektlərinə qarşı terrorun qarşısını aldı

***Rusiyada nüvə obyektlərinə qarşı Ukrayna xüsusi xidmət orqanları tərəfindən planlaşdırılan terror aktının qarşısı alınıb.***

"Unikal" gazeta.ru-ya istinadən xəbər verir ki, bu barədə Rusiya Federal Təhlükəsizlik Xidməti məlumat yayıb.

Bildirilir ki, Ukrayna Xarici Kəşfiyyat Xidmətinin diversiya-terrorçu qrupu Sankt-Peterburq və Kalinin atom elektrik stansiyalarının 30-dan çox elektrik ötürücü dirəyini sıradan çıxarmağa cəhd edib.

Terrorçular Sankt-Peterburq Atom Elektrik Stansiyasının elektrik ötürücü xəttinin birini, dörd sütununu minalamağa və Kalinin stansiyasının yeddi sütununun altına partlayıcı qurğular yerləşdirməyə nail olublar.

İki Ukrayna vətəndaşı saxlanılıb, daha biri axtarışa verilib.

*Gülayə Mecid*



# Danışılmış oyunlara görə 7 nəfər futboldan uzaqlaşdırdı



***AFFA-nın İntizam Komitəsinin iclası keçirilib.***

"Unikal" xəbər verir ki, yığıncaqda danışılmış oyunlarla bağlı müzakirələrdən sonra müvafiq qərarlar verilib.

I Divizionda MOİK klubunda çıxış edən 04.02.1992-ci il təvəllüdlü Hüseynov Kamil İsrafil oğlunun danışılmış oyunlar barədə məlumatı olub, müvafiq orqanlara məlumat vermədiyinə görə 2 il müddətinə (1 il 6 ay şərti olmaqla) futbol ilə əlaqədar hər hansı fəaliyyətlə məşğul olmağına qadağa qoyulsun (maddə 80.4; 32.2);

I Divizionda MOİK klubunda çıxış edən 28.10.1992-ci il təvəllüdlü Allahverdiyev İlham Elman oğlunun danışılmış oyunlar barədə məlumatı olub, müvafiq orqanlara məlumat vermədiyinə görə 2 il müddətinə (1 il 6 ay şərti olmaqla) futbol ilə əlaqədar hər hansı fəaliyyətlə məşğul olmağına qadağa qoyulsun (maddə 80.4; 32.2);

I Divizionda MOİK klubunda çıxış edən 22.05.2002-ci il təvəllüdlü Rüstəmov Rüstəm Kənan oğlunun danışılmış oyunlar barədə məlumatı olub, müvafiq orqanlara məlumat vermədiyinə görə 2 il müddətinə (1 il 6 ay şərti olmaqla) futbol ilə əlaqədar hər hansı fəaliyyətlə məşğul olmağına qadağa qoyulsun (maddə 80.4; 32.2);

I Divizionda MOİK klubunda çıxış etmiş 20.05.2000-ci il təvəllüdlü Sabirli Qabil Mobil oğlunun danışılmış oyunlar barədə məlumatı olub, müvafiq orqanlara məlumat vermədiyinə görə 2 il müddətinə (1 il 6 ay şərti olmaqla) futbol ilə əlaqədar hər hansı fəaliyyətlə məşğul olmağına qadağa qoyulsun (maddə 80.4; 32.2);

I Divizionda MOİK klubunda çıxış etmiş, hazırda "Araz Naxçıvan"ın qapıçısı olan 18.12.2000-ci il təvəllüdlü Bayramov Fərman Namiq oğlunun danışılmış oyunlar barədə məlumatı olub, müvafiq orqanlara məlumat vermədiyinə görə 2 il müddətinə (1 il 6 ay şərti olmaqla) futbol ilə əlaqədar hər hansı fəaliyyətlə məşğul olmağına qadağa qoyulsun (maddə 80.4; 32.2);

I Divizionda MOİK klubunda çıxış edən 01.01.2000-ci il təvəllüdlü Veysov Elşən Kamil oğlunun danışılmış oyunlar barədə məlumatı olub, müvafiq orqanlara məlumat vermədiyinə görə 2 il müddətinə (1 il 6 ay şərti olmaqla) futbol ilə əlaqədar hər hansı fəaliyyətlə məşğul olmağına qadağa qoyulsun (maddə 80.4; 32.2);

16.08.1988-ci il təvəllüdlü Hüseynov Samir Azər oğlu danışılmış oyunların təşkil edilməsinə görə futbolla bağlı hər hansı fəaliyyətdən ömürlük məhrum edilərək AFFA və PFL bayrağı altında keçirilən oyunlarda stadiona daxil olmağı qadağan edilsin (maddə 80.1.)

QEYD: Adları çəkilən futbolçular 6 aydan sonra futbol fəaliyyəti ilə məşğul ola bilər.

# "Qarabağ"ı Çexiyada yaxşı tanıyırlar"

***Çexiyanın iDNES.cz saytı ölkə çempionu "Sparta"nın 2023/2024 mövsümü üçün Çempionlar Liqasındakı potensial rəqibləri haqda yazı hazırlayıb.***



Yazıda Ağdam təmsilçisinin Praqa klubunun ən çətin potensial rəqiblərindən biri olduğu vurğulanıb. Bildirilib ki, "Qarabağ"ı Çexiyada yaxşı tanıyırlar: "Dinamo" (Zaqreb, Xorvatiya), "Ferensvaroş" (Macarıstan), "Qarabağ" (Azərbaycan), "Slovan" (Slovakiya), "Kopenhagen" (Danimarka) Çempionlar Liqasının qrup mərhələsinə yüksəlmək üçün "Sparta Praqa"nın ən çətin potensial rəqibləridir. İtaliya çempionatının geridə qalan turlarında sürpriz olmasa, o zaman Çexiya çempionu avrokuboklara 3-cü mərhələdən başlayacaq. "Slovan", "Ferensvaroş" və "Qarabağ" "Sparta" ilə qarşılaşmaları üçün iki mərhələ keçməlidir.

"Qarabağ"ı Çexiyada yaxşı tanıyırlar, ötən il Çempionlar Liqasının qrup mərhələsinə vəsiqə uğrunda "Viktoriya" ilə mübarizə aparıblar (0:0, 1:2). Daha sonra cavab oyununda azərbaycanlılar matç ərzində üstünlüyə malik olsalar da, qapıçının kobud səhvləri səbəbindən məğlub oldular. Çexiyalı qapıçı isə güllə keçirməz idi" - deyə yazıda bildirilib.



# PSJ "Bavariya"nın futbolçusu ilə razılaşdı

***PSJ "Bavariya"nın futbolçusu Luka Hernandesi transfer edəcək.***

Bu barədə "L'Equipe" məlumat yayıb. Tərəflər artıq keçidlə bağlı prinsipial razılığa gəliblər. Bu mövsüm 27 yaşlı müdafiəçi Bundesliqada 7 oyun keçirib. O, çarpaz bağ yırtığına görə bərpa prosesi keçir.

Fransa millisinin də üzvü olan Luka 2019-cu ildən Münhen təmsilçisində oynayır.

# Ramil Şeydayev cəzalandırıldı



***AFFA-nın İntizam Komitəsi "Qarabağ"ın futbolçusu Ramil Şeydayevlə "Sumqayıt"ın oyunçusu Todor Todoroskini cəzalandırıb.***

Qol.az xəbər verir ki, bu barədə komitənin bu gün açıqlanan qərarında bildirilib. Qeyd edilib ki, 22.05.2023-cü il tarixində Misli Premyer Liqasının 35-ci turunun "Qarabağ" - "Sumqayıt" oyunu bitdikdən sonra hər iki oyunçusu bir-birinə əl-qol atıb. Bu hərəkətlərinə görə Ramil Şeydayev və Todor Todoroski hər biri 2-si şərti olmaqla 3 oyun cəzalanıb. Bundan başqa, hər iki klub ayrı-ayrılıqda 2400 manat cərimə edilib.

# Qvardiola:"Oyundan 48 saat əvvəl Mançesterdə bütün spirtli içkiləri içdik"



***"Mançester Siti"nin baş məşqçisi Xosep Qvardiola İngiltərə Premyer Liqasının 32-ci turdan təxirə salınmış "Brayton"la oyundan (1:1) sonra fikirlərini bildirib.***

Qol.az "Mirror"a istinadən xəbər verir ki, "Brayton" bu nəticə ilə (62 xal, 6-cı yer) Avroliqaya vəsiqəni təmin edib.

Mütəxəssis matçla bağlı deyib: "Yaxşı oyun oldu. Rəqibi Avropa Liqasına vəsiqə qazandığına görə təbrik edirəm. Onlar oynadıqları oyuna görə 100 faiz buna layiqdirlər. Mançesterdə bütün spirtli içkiləri içdikdən 48 saat sonra layiqli oyun nümayiş etdirdik. "Mançester Siti"nin futbolçuları niyə çempion olduqlarını göstərdilər. Biz topla və topsuz nəyə qadir olduğumuzu göstərdik. Mən intensivliyimizdə və fikrimizdə heç bir azalma hiss etmədim. Hər iki komandanın qol epizodları oldu".

Xatırladaq ki, "Mançester Siti" çemionluğu rəsmiləşdirib.

# Renat "Qrasshopper"in təlim-məşq toplanışına gec qoşulacaq

***"Qrasshopper"də çıxış edən millimizin üzvü Renat Dadaşov komandasının 2023/2024 mövsümün öncəsi təlim-məşq toplanışına gec qoşulacaq.***

Qol.az "Blick" nəşrinə istinadən xəbər verir ki, 24 yaşlı hücumçu milli komandanın düşərgəsində olacağı üçün klubunun iyunun 19-u Bazeldə başlayacaq hazırlığının ilk günlərində olmayacaq.

Bu isə o deməkdir ki, R.Dadaşov millimizin Avro-2024-ün seçmə mərhələsində "Dalğa Arena"da iyunun 17-i (saat 20:00) keçiriləcək Latviyaya qarşı oyunu üçün yığmamıza çağırılacaq. Qeyd edək ki, "Qrasshopper" İsveçrə çempionatının turnir cədvəlində 43 xalla 6-cı pillədə qərarlaşıb.